

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 31 (771) ▪ 12 avqust 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyev: Dünya səviyyəli «Qalaaltı» beynəlxalq müalicə və istirahət kompleksinin fəaliyyətə başlaması ölkəmizin sürətli və hərtərəfli inkişafının göstəricisidir

*Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şabran rayonunun ərazisində yerləşən «Qalaaltı Hotel & SPA» müasir müalicə-istirahət kompleksinin açılışında iştirak edib.*

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda «Qalaaltı Hotel & SPA» müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur «Qalaaltı» kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək otel, villa və kotteclər var.

Bakıdan cəmi 127 kilometr məsafədə yerləşən bu kompleksin 171 otaqdan ibarət otel binası ən müasir standartlara cavab verir. Burada qonaqların zövqünü oxşayan interyer işləri aparılıb, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas və konfrans zalları yaradılıb. Binadakı 112 superior otağın 33-ü iki, 79-u isə birnəfərlikdir. Bundan başqa, burada 11 suit və 1 lüks otaq da var. Kompleksdə istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıb. Otel binasındakı «Mənzərə» restoranı, «Lavanda», «Qala» və «Vitamin» barları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır. Müalicə-istirahət mərkəzində aptek, market, suvenir mağazası, kişi və qadın bərbərxanaları fəaliyyət göstərir, qonaqlara bank xidmətləri təklif olunur.

«Qalaaltı» kompleksində yerləşən tibbi mərkəz müasir avadanlıqla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şərait yaradılan mərkəzdə fizioterapiya, elektroterapiya, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə uroloji xidmətlər də göstəriləcək. Kosmetoloji bölmədə kosmetoloji prosedur otağı, krioterapiya, solyarium, ozon kapsula və haloterapiya-duz otaqları var.

Azərbaycanın dövlət başçısı kompleksin kollektivi ilə görüşüb. Kollektivi salamlayan Prezident İlham Əliyev deyib:

- Mən sizi ürəkdən təbrik etmək istəyirəm. Bu gün biz «Qalaaltı» müalicəvi istirahət mərkəzinin açılışını qeyd edirik. Gözəl, əlamətdar hadisədir və bu hadisə bir daha onu göstərir ki, ölkəmiz sürətlə və hərtərəfli inkişaf edir.

Qalaaltı suyu çox məşhur sudur, nadir keyfiyyətlərə malikdir və indi bu gözəl mərkəz yaranandan sonra əminəm ki, həm Azərbaycan vətəndaşları, həm də xarici qonaqlar bu imkanlardan istifadə edəcəklər.

Bu gün «Qalaaltı» kurortuna yeni həyat verilir, Qalaaltının yeni dövrü başlayır. Bu, müasir dövrdür, gözəl dövrdür və burada yaradılan şərait ən yüksək standartlara uyğundur.

«Qalaaltı» kurortu 1970-ci illərdə yaradılmışdır. Əlbəttə ki, o vaxt şərait belə deyildi, ancaq buna baxmayaraq, Sovet İttifaqının müxtəlif yerlərindən buraya qonaqların axını müşahidə olunurdu. Minlərlə insan hər il Sovet İttifaqının müxtəlif yerlərindən buraya gəlirdi, müalicə alırdı, istirahət edirdi.

Bu gündən sonra artıq Qalaaltı dünya səviyyəli beynəlxalq müalicə və istirahət kompleksi kimi fəaliyyətə başlayacaq və burada yaradılan şərait, - siz də bunu yaxşı bilirsiniz, - ən yüksək standartlara uyğundur. Beşulduzlu otel, SPA mərkəzi, əyləncə zonaları, əlbəttə, bunun özəlliyi ondan ibarətdir ki, burada yerin altından çıxan gözəl su insanların sağlamlığına müsbət təsir göstərəcək.

Bununla bərabər, deyə bilərəm ki, bu mərkəzin açılışında bizim siyasətimiz də öz əksini tapır. Çünki regionların inkişafı, qeyri-neft sektorunun, turizm sektorunun inkişafı bizim üçün prioritet sahədir. Regionların inkişafı ilk növbədə infrastruktur layihələrindən başlamışdır, yollar çəkilməli idi. Əgər yol olmasaydı burada heç kim vəsait qoyub bu mərkəzi yaratmazdı. Həm Bakı-Quba-Rusiya sərhədi magistral yolu, eyni zamanda, Siyəzən şəhərindən çəkilən yol və digər infrastruktur layihələri ki, bu gün bütün bölgələrdə bu layihələr icra edilir. İçməli su, elektrik enerjisinin təchizatı, kənd yolları, qazlaşdırma və digər infrastruktur layihələri ölkəmizdə uğurla icra edilir. Regionların inkişafı, o cümlədən turizmin inkişafı ilə bağlıdır, xüsusilə nəzərə alsaq ki, bizim çox gözəl təbiətimiz var. Biz çox xoşbəxt insanlarıq ki, belə gözəl ölkədə yaşayırıq. Xəzər dənizi, dağlar, çaylar, bulaqlar, göllər, meşələr - bütün bunlar bizdə var. Belə olan halda, turizmin inkişafı bir neçə il bundan əvvəl prioritet istiqamət kimi müəyyən edilmişdir və hazırda ölkəmizin müxtəlif yerlərində dünya səviyyəli turizm mərkəzləri və kurortlar fəaliyyət göstərir.

Sovet dövründə iki məşhur kurortumuz var idi - biri Qalaaltı, biri də Naftalan. Naftalan kurort mərkəzi də bu gün ən yüksək səviyyədə yaradılıb. Artıq beşulduzlu üç otel fəaliyyət göstərir. Mən o otellərin hər birinin açılışında şəxsən iştirak etmişəm və dördüncü otel də tikilməkdədir. Beləliklə, Naftalana hər il istirahət üçün artıq on minlərlə insan gəlir və son vaxtlar şadam ki, xarici ölkələrdən də gələnlərin sayı gündən-günə artır. Əminəm ki, Qalaaltı da o səviyyəyə qalxacaq. Çünki burada da müalicə almaq, istirahət etmək, dincəlmək üçün çox gözəl imkanlar var.

Beləliklə, biz bu iki tarixi kurort mərkəzini nəinki bərpa etdik, ən yüksək dünya səviyyəsində yenidən yaratdıq.

Bizim digər kurort yerlərimiz də var, misal üçün bir neçə il bundan əvvəl Naxçıvanda «Duzdağ» mağarasının ətrafında gözəl otel tikilmişdir. O mağaralarda da gözəl işlər görülmüşdür. O daha çox ağciyər xəstəlikləri üçün yararlıdır. «Qalaaltı» kompleksində böyrək, öd kisəsi, Naftalanda revmatizm, oynaq xəstəlikləri müalicə olunur. Bax, bu müxtəliflik artıq Azərbaycanı dünya səviyyəli turizm mərkəzinə çevirir. Nəzərə alsaq ki, bizim gözəl Xəzər dənizimiz var, dəniz boyu yerlərdə otellər tikilir. Avropa Oyunlarının keçirilməsi, əlbəttə ki, turizmin inkişafına çox müsbət təsir göstərmişdir. Biz bunu görürük. Minlərlə qonaq gəldi və Bakıya heyran oldu. Bakının gözəlliyi, abadlığı, yaradılan şərait, insanlarımızın qonaqpərvərliyi, əlbəttə ki, turistləri cəlb edir.



Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Biz bəzi ölkələrin gəlirlərinə fikir versək görərik ki, ən çox gəlir gətirən sahə turizmdir. Bəs turizmin inkişafı üçün nə lazımdır? İlk növbədə gərək səni tanısınlar. Biz ölkəmizi tanıtdırırıq, dünya miqyasında, xarici ölkələrdə təqdimatlar, mədəniyyətimizlə, inkişafımızla bağlı tədbirlər keçiririk. Eyni zamanda, Azərbaycanda mötəbər beynəlxalq yarışlar, mədəni tədbirlər, festivallar, müsabiqələr təşkil olunur. Avropa Oyunları başa çatdı, gələn il «Formula-1» yarışı, iki ildən sonra İslam Həmrəylik Oyunları keçiriləcək. Bütün bunlar qonaqları cəlb edir və ondan sonra qonaqlar da vətənlərinə qayıdaraq öz fikirlərini bölüşürlər. Misal üçün, dünən mən Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti ilə görüşmüşəm, - dünən Qəbələdə dünya kubokunun yarışları başlamışdır, - o, mənə dedi ki, Avropa Oyunlarının açılışında iştirak edərkən, Bakı ilə tanış olarkən şəhərimiz çox xoşuna gəldi və bu dəfə öz ailəsi ilə Bakıya gəldi. Bax, budur bizim imkanlarımız. Biz beynəlxalq tədbirlər keçiririk ki, bizi daha çox tanısınlar. Bu, birinci şərtdir. Turizmin inkişafı üçün ikinci şərt infrastrukturun mövcudluğudur. Bizim Heydər Əliyev Beynəlxalq Aeroportumuz dünya miqyasında ən birinci yerlərdədir. Avtomobil yolları, infrastruktur, xidmət sahəsi və əlbəttə, insanlarımızın qonaqpərvərliyi ki, bu da həmişə var. Bu, bizim bəlkə də ən böyük sərvətimizdir. Ona görə, bax, bütün bu amilləri nəzərə alaraq biz görürük ki, Azərbaycanda turizmin inkişafı üçün çox gözəl imkanlar var. Biz bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik.

«Qalaaltı» müalicəvi istirahət mərkəzinin açılışı sadəcə olaraq bir otelin açılışı deyil, bu, bizim siyasətimizin əksidir və bizim niyyətimizi ifadə edir. Əminəm, yerli və xarici investorlar bu imkanlardan ruhlanaraq Azərbaycanda yeni gözəl otellər, istirahət zonaları yaradacaqlar ki, həm vətəndaşlarımız, həm qonaqlarımız bundan istifadə etsinlər.

Siz, burada işləyən insanlar əminəm ki, öz vəzifə borcunuzu şərəflə yerinə yetirəcəksiniz, qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Əminəm ki, bir dəfə buraya gələn qonaqlar yenidən qayıtmaq istəyəcəklər.

Dövlət başçısı kompleksin ərazisində yaradılan şəraitlə tanış olub.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən-Məşrif avtomobil yolunun açılışında da iştirak edib.

# Dövlət başçısının Cəlilabad rayonuna səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfərə gəlib. O, Cəlilabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti Cəlilabadda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş körpələr evi-uşaq bağçasının açılışında da iştirak edib. Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili və gələcəkdə intellektual qüvvə kimi yetişmələri üçün bu gün dövlətimiz tərəfindən mühüm tədbirlər görülür. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Cəlilabadda inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası bu işlərin ardıcıl xarakter aldığını açıq şəkildə nümayiş etdirir. Dövlətimizin başçısı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı «Avanqard» MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatında olub. Ona iri fermer təsərrüfatları barədə məlumat verilib. Bildirilib ki, ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Dövlət Torpaq Fondu hesabına iri fermer təsərrüfatlarının yaradılması prosesi davam etdirilir. Hazırda Ağcabədi, Beyləqan, Kürdəmir, Ağsu, İmişli, Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı, Şamaxı rayonlarında 30 min hektardan artıq sahədə 15 sahibkarlıq subyekti tərəfindən 19 iri fermer təsərrüfatı yaradılır. Ümumi dəyəri 123,7 milyon manat olan bu təsərrüfatların yaradılmasına 54,8 milyon manat məbləğində güzəştli dövlət kreditləri verilib.

Azərbaycan Prezidentinə Cəlilabadın da daxil olduğu Lənkəran iqtisadi rayonu üzrə verilmiş güzəştli kreditlər barədə məlumat verilib. Qeyd olunub ki, indiyədək Lənkəran iqtisadi rayonu üzrə 2528 sahibkar 102,6 milyon manat güzəştli kreditlərdən faydalanıb. Bu kreditlər hesabına 11 mindən çox yeni iş yeri yaradılıb. Eyni zamanda, 2250 sahibkara 19 milyon manatadək kiçik həcmli güzəştli kredit verilib və bu kreditlər hesabına 4580-ə yaxın yeni iş yeri yaradılıb. Cəlilabad rayonunda isə 530-dan çox sahibkar 21,7 milyon manat güzəştli kredit alıb və bu kreditlər hesabına 2900-dən çox yeni iş yeri açılıb.

Prezident İlham Əliyev keçmiş dövlət kənd təsərrüfatı istehsalı müəssisəsinin bazasında 1300 hektar torpaq sahəsi üzrə müsabiqənin qalibi olmuş «Avanqard» MMC tərəfindən yaradılmış iri fermer təsərrüfatının sahələrinə baxıb. Təsərrüfatın investisiya layihəsinin ümumi dəyəri 5,9 milyon manat təşkil edir ki, bunun da 1,9 milyon manatı sahibkarın şəxsi vəsaiti, 4 milyon manatı isə güzəştli kredit vəsaiti hesabına həyata keçirilir.

Azərbaycan Prezidenti Cəlilabad rayonuna səfəri çərçivəsində Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyevin səfəri zamanı Cəlilabad rayonunun Göytəpə şəhərinin mərkəzində, Göytəpə çayının sahilində inşa edilmiş Heydər Əliyev adına park-bulvarın açılışı olub.

2 | Vergi proqnozu artıqlaması ilə yerinə yetirilmişdir

3 | Elektron ticarət və vergitutma məsələləri

4 | Əmək müqavilələri vergitutma bazasının genişlənməsinə xidmət edir

5 | Sahibkarların işləri asanlaşdırılır

# Vergi proqnozu artıqlaması ilə yerinə yetirilmişdir

2015-ci ilin yanvar-iyul ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 4 milyard 104 milyon 76,7 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 101,9 faiz əməl edilmişdir.

Bu ilin ilk yeddi ayında vergi orqanlarında 47 396 vergi ödəyicisi qeydiyyata alınmışdır.

# Vergilər Nazirliyi yenə birincidir

Avqustun 6-da Beynəlxalq Mətbuat Mərkəzində «Dövlət qurumlarının onlayn şəffaflığı: problemlər və perspektivlər» mövzusunda «dəyirmi masa» keçirilib. Tədbirdə Multimedia Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz informasiya açıqlığı üzrə mərkəzi və yerli icra qurumlarının növbəti hesabatını və reytinq cədvəlini ictimaiyyətə təqdim edib.

Forum rəhbəri 4 ay ərzində 73 mərkəzi və 68 yerli icra hakimiyyəti orqanının rəsmi internet resursunun monitorinqinin aparıldığını, rəsmi səhifələrin 60 parametr üzrə informasiya açıqlığı vəziyyətinin təhlil edildiyini bildirilib. Hər bir qurum üzrə araşdırmaların yekunu olaraq icmal və tövsiyələr hazırlandığı diqqətə çatdırılıb, mərkəzi icra orqanlarında informasiya açıqlığı sahəsində əvvəlki illərlə müqayisədə əhəmiyyətli irəliləyişlər olduğu qeyd edilib.

Monitorinqin nəticələrinə əsasən, informasiya açıqlığı üzrə reytinq cədvəlində 1-ci, 2-ci və 3-cü yerləri müvafiq olaraq Vergilər Nazirliyi (78,2%), Dövlət Qulluğu Məsələləri üzrə Komissiya (76,3%) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (76%) tutub.




Qeyd edək ki, Multimedia Mərkəzi tərəfindən Mərkəzi icra orqanlarında informasiya açıqlığı sahəsində monitorinq 2007-ci ildən keçirilir və Vergilər Nazirliyi 7 dəfə bu siyahıda birinci olub.

# Vergilər Nazirliyində görüş keçirilmişdir

Nazirliyin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin fəaliyyətinin səmərəliliyinin daha da artırılması, vergi potensialının dəqiqləşdirilməsi və vergi öhdəliklərinin müəyyən edilməsinə nəzarətin təmin edilməsi məqsədilə vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun əmri ilə Baş İdarənin strukturunda dəyişikliklər aparılmışdır. Yeni yaradılan struktur bölmələrinin və yerli vergi orqanlarının nümayəndələri ilə nazirlikdə keçirilmiş görüşün əsas mövzusu bu dəyişikliklərə, eləcə də qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuşdur.

Baş İdarənin rəisi, baş vergi xidməti müşaviri İlkin Vəliyev ərazi vergi orqanlarının əməkdaşlarına yeni yaradılan strukturlar haqda ətraflı məlumat vermiş, həyata keçirilməsi zəruri olan vəzifələri izah etmişdir.

Görüşdə Baş İdarənin rəis müavini Ömər Cəfərov vergi öhdəliklərinin müəyyən edilməsi və icrasına nəzarət istiqamətində həyata keçirilməli olan tədbirlər haqqında məlumat vermişdir. Vergi öhdəliklərinin real məbləğinin müəyyənləşdirilməsi və vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində vergi ödəyiciləri ilə partnyorluq sazişlərinin bağlanmasının önəmli olduğu vurğulanmışdır. Bildirilmişdir ki, vergi risklərinin minimallaşdırılması baxımından vergi ödəyiciləri ilə qarşılıqlı etibara əsaslanan əməkdaşlıq münasibətləri yaratmaq və biznes subyektləri ilə vergi orqanlarının qarşılıqlı fəaliyyətini təşkil etmək mühüm əhəmiyyət kəsb edir.

Tədbirin sonunda ərazi vergi orqanlarının əməkdaşlarının sualları ətraflı cavablandırılmışdır.

# POS-terminalların 98,2 faizi quraşdırılıb

Bu il iyulun 1-nə Azərbaycanda banklar tərəfindən quraşdırılmış bankomatların sayı 2 min 703 ədəd olub. Bu göstərici ilin əvvəli ilə müqayisədə 3,6 faiz çoxdur.

Mərkəzi Bankın məlumatına görə, həmin bankomatlardan 1530-u Bakıda, 1173-ü isə regionlardadır. Bu dövrdə respublika ərazisində ticarət və xidmət obyektlərində isə 78 min 264 ədəd POS-terminal quraşdırılıb. Bunun 49 min 438-i Bakının, 28 min 826-sı regionların payına düşür. Pərakəndə ticarət obyektlərində isə 76 min 832 və ya bütün POS-terminalların 98,2 faizi istifadəyə verilib.

# «İş yerinə dair arayış» populyarlaşır

İyulda vətəndaşlar «Elektron hökumət» portalında «İş yerinə dair arayış» elektron xidmətindən 18 min 547 dəfə faydalanıblar.

Bu elektron arayış vətəndaşlara kredit götürmək üçün bir sıra banklara və kredit təşkilatlarına müraciət etmək imkanı verir. «İş yerinə dair arayış»ın eldə edilməsi üçün «Elektron hökumət» portalında autentifikasiyadan keçmək tələb olunur.

# Milli biznesin xarici əlaqələri genişlənir

Azərbaycan Ticarət və Sənaye Palatası ölkə sahibkarlarının istehsal etdikləri məhsulların xarici ölkələrdə tanıdılması və yerli biznesin ixrac imkanlarının genişləndirilməsi məqsədilə ardıcıl işlər aparır. Palatanın sədri Niyaz Əlizadənin sözlərinə görə, rəhbərlik etdiyi qurum indiyədək 122 ölkənin Ticarət və Sənaye palataları ilə əməkdaşlıq haqqında müqavilələr imzalayıb. Mövcud sazişlər milli biznesin xarici ölkələrdə təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Avropa Palatasının, Ümumdünya Palatasının, Beynəlxalq İslam Palatasının və Asiya-Sakit Okean Palatasının üzvü olması Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyətində qarşılıqlı iqtisadi əməkdaşlığın və investisiyaların qoyuluşu baxımından öz faydasını göstərməkdədir.

Qurum yerli sahibkarlara xarici sahibkarların iş əlaqələrinin qurulmasına yardım etmək, ölkədə istehsal olunan rəqabətqabiliyyətli malların və xidmətlərin ixracını genişləndirmək və iqtisadiyyatımıza xarici investisiyaları cəlb etmək istiqamətində layihələr həyata keçirir. Müntəzəm olaraq Azərbaycanın ümumdünya sərgilərində təmsil edilməsi işgüzar mühitə öz töhfəsini verir. Qeyri-neft sektorunda fəaliyyət göstərən nüfuzlu şirkətlərimizin məhsulları Almaniya, Fransa, Yaponiya, Çin və Koreya Respublikasının yerli yarmarka və sərgilərində nümayiş etdirilib. Sərgilərin yekunu olaraq azərbaycanlı iş adamları ilə iri xarici şirkətlər arasında qarşılıqlı ticarətə dair müqavilələr imzalanıb. Son beş ildə Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının həcmi iki dəfəyə yaxın artıb.

Bakı şəhərində müntəzəm təşkil olunan sərgi və biznes görüşləri də xarici iş adamlarının ölkəmizin iqtisadiyyatı barədə məlumatlarının artmasında xüsusi rol oynayır. Yerli iş adamlarının xarici biznes partnyorları ilə birbaşa təmaslarının yaradılmasına xidmət edən bu cür tədbirlər Azərbaycana Avropa və Asiyanın yeni innovativ texnologiyalarının cəlb edilməsinə şərait yaradır. Son iki ildə sənaye texnologiyaları parklarına və digər sənaye-istehsal müəssisələrinə on qabaqcıl texnologiyaların gətirilməsinə nail olunub. Hazırda dövlət başçısının tapşırığına uyğun olaraq iqtisadiyyatın qeyri-neft sektoruna və regionlardakı yeni emal, istehsal sahələrinə ən müasir texnologiyaların və investisiyaların cəlb edilməsi məqsədilə xarici şirkətlərin nümayəndələri ilə həftəlik görüşlər keçirilir. Potensial investorlara bu mövzu ilə bağlı xüsusi təqdimatlar təşkil olunur. Görüşlərdə irəli sürülən təklif və tövsiyələr aidiyyəti iqtisadi qurumlarla birgə müzakirə edildikdən sonra xarici sərmayələrin Azərbaycana cəlb olunması üçün səmərələşdirici və stimullaşdırıcı addımların atılması planlaşdırılır.

Xarici dövlətlərin biznes dairələri ilə Azərbaycanda elektron ticarətin inkişaf etdirilməsi istiqamətində də danışıqlar aparılır. Avropada e-ticarətlə bağlı tətbiq olunan qanunvericiliyin yerli biznes strukturlarına çatdırılması və bu sahədə maarifləndirici tədbirlərin aparılması nəzərdə tutulur. Bundan əlavə, e-ticarətlə bağlı xarici biznes nümayəndələrinin ölkəmizdə təlim və seminarlarının təşkili də planlaşdırılır.

**E.CƏFƏRLİ**

# Bakı metrosunda vahid kartların istifadəsinə başlanılır

Avqustun 6-da «Bakı Metropoliteni» QSC-də vahid ödəniş kartı olan «BakıKart» və «BakıKart məhdud istifadə üçün» kartlarının təqdimatı olub. «BakıKart» layihəsinin rəhbəri Ceyhun Əliyev avqustun 8-dən Bakı Metropoliteninin stansiyalarına daxil olmaq üçün vahid ödəniş kartı kimi «BakıKart» və «BakıKart məhdud istifadə üçün» kartlarından istifadəyə başlanılacağını və sentyabrın 30-dan isə hazırkı «Metrokart»ın istifadəsinin dayandırılacağını deyib.




Onun sözlərinə görə, bu kartlardan eyni zamanda da «BakuBus» MMC-yə məxsus avtobuslarda istifadə olunacaq. Yeni kartları bütün metro stansiyalarında və «BakuBus» MMC-yə məxsus marşrutların Bakıdakı dayanacaqlarında quraşdırılmış yeni terminallardan əldə etmək olar.

«BakıKart»ın qiyməti 2 manatdır və 1 gediş haqqının qiyməti isə 20 qəpikdir. «BakıKart Məhdud istifadə üçün» kartın qiyməti də 20 qəpikdir. Bu növ karta yalnız 1, 2, 3 və ya 4 gediş yükləmək mümkündür. Terminallarda bu növ kartların balansını artırmaq mümkün deyil. «BakıKart Məhdud istifadə üçün» kartı yuxarıda qeyd edilən nəqliyyat vasitələrindən az istifadə edən şəhərin qonaqları və sakinləri üçün nəzərdə tutulub. Hər iki növ kart heç bir halda geri qaytarılmır.

«Bakı Metropoliteni» QSC-nin hərəkət xidmətinin baş mühəndisi Etibar İsayev isə hazırda istifadə olunan kartların taleyi ilə bağlı məsələyə aydınlıq gətirib. Onun sözlərinə görə, avqustun 15-dək «Metrokart»ın girov dəyəri nağd şəkildə geri qaytarılacaq. Qeyd edilən tarixdən sonra isə bu mümkün olmayacaq. «Metrokart»ı «BakıKart» ilə dəyişdirmək mümkün deyil. «Metrokart»dan iki halda gediş haqqı olaraq istifadə edilə bilər. «Metrokart»ın girov dəyəri həmin karta gediş haqqı olaraq yüklənir. «Metrokart»ın balansı sıfır olduqda atılır və yeni «BakıKart» alınaraq istifadə olunur. «Metrokart»ın girov dəyəri və balansında olan məbləğ «BakıKart»a köçürülərək istifadə edilir.

E.İsayev onu da vurğulayıb ki, «Metrokart»ın balansında olan gediş haqqı sentyabrın 30-na qədər istifadə oluna bilər. «Metrokart»ın girov dəyəri və balansında olan məbləği «BakıKart»a köçürmək istəyən sərnişinlər yeni terminal vasitəsilə «BakıKart»ı alıb istifadədə olan «Metrokart»ı ilə birlikdə stansiyanın xəzinədarına təqdim etməlidir. Bir ədəd «Metrokart»ın girov dəyərini və ona yüklənmiş məbləği yalnız bir ədəd «BakıKart»a transfer etmək mümkündür.

Bildirilib ki, avqustun 15-dən sentyabrın 30-dək «Metrokart»ın girov dəyəri sadəcə gediş haqqı kimi istifadə olunacaq. Sentyabrın 30-dək isə metropolitendə «Metrokart» və «BakıKart»ın birgə istifadəsi həyata keçiriləcək.

Qeyd edək ki, «Metrokart» və «BakıKart»ları ilə yaranmış hansısa problemlə bağlı «20 Yanvar», «Cəfər Cabbarlı», «Nəriman Nərimanov», «Neftçilər» stansiyalarında fəaliyyətdə olan «Kart Analiz» mərkəzlərinə, *4343 telefon nömrəsinə və ya www.bakikart.az veb səhifəsinə müraciət etmək mümkündür.






## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin iyul ayında ərzaq məhsullarının qiymətləri əvvəlki ayla müqayisədə **1,7%** ucuzlaşmış, qeyri-ərzaq mallarının və əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri eyni səviyyədə qalmış, ümumilikdə istehlak mallarının qiymətləri və xidmət tarifləri **0,7%** ucuzlaşmışdır.
- «Elektron hökumət» portalında istifadədə olan «Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi» e-xidmətindən ötən ay **29650** dəfə istifadə edilib.
- «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» üzrə İcbari Sığorta Bürosunun (İSB) iştirakçıları olan sığorta şirkətləri tərəfindən iyulda 2029 sığorta tələbi üzrə **2,5 milyon manat** məbləğində sığorta ödənişi həyata keçirilib.
- Bu ilin altı ayında qeyri-dövlət mülkiyyətli müəssisələr tərəfindən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin **70,7 %-ni** təşkil edib.

# Aşağı faizlə güzəştli kreditlər veriləcək

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişaf göstəricilərinin yekununa həsr olunmuş iclasında aidiyyəti qurumlara sahibkarlığa dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi ilə bağlı bir sıra tapşırıqlar verib, azad biznesin inkişaf etdirilməsi üçün səmərələşdirici addımların atılacağını bildirib: «Sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq». Dövlət başçısı bu təklifləri dəstəklədiyini və güzəştli kreditlərin faizlərinin endirilməsi sayəsində iş adamları və fermerlərin daha da böyük gəlir əldə edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

İqtisadiyyat və Sənaye, Maliyyə nazirlikləri, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyası yaxın vaxtlarda özəl biznesin maliyyələşmə mexanizmlərinin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanmasına başlayıb. Payızda hökumətə təqdim ediləcəyi gözlənilən sənəddə sahibkarlara verilən güzəştli kreditlərin faizlərinin aşağı salınması ilə bərabər, kreditlərin verilməsi şərtlərinin daha da asanlaşdırılması, maliyyə vəsaitlərinin həcminin artırılması da nəzərdə tutulur.

İqtisadiyyat və Sənaye Nazirliyindən (İSN) bildirildiyinə görə, kreditlərin sahibkarlara daha əlverişli və sərfəli şəkildə çatdırılması məqsədilə son 10 ildə mərhələli şəkildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarına dəyişikliklər edilib, güzəştli kreditlərin verilməsi mexanizmi sadələşdirilib. Dövlət başçısının tapşırığına uyğun olaraq fondun fəaliyyət mexanizminin, hüquq və vəzifələrinin, fəaliyyətinə dair qanunvericilik bazasının və idarəetmə strukturunun daha da təkmilləşdirilməsi, o cümlədən fondun fəaliyyətinə nəzarətin daha dəqiq və effektiv həyata keçirilməsi kimi mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirilib. 2011-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi qaydalarına edilmiş əlavə və dəyişikliklərə əsasən, sahibkarlıq subyektləri üçün verilən güzəştli kreditin minimum həddi 5 min manat, maksimum həddi isə 10 milyon manat məbləğində müəyyən olunub. Güzəştli kreditlər üzrə müddətin maksimum həddi isə 10 ilədək artırılıb.

Regionda çalışan sahibkarların birbaşa Sahibkarlığa Kömək Milli Fonduna çıxışı təmin edilib. Onlar fondun iqtisadi rayonlar üzrə nümayəndələrinə müraciət edir. Bundan sonra müraciət edən sahibkarın güzəştli kreditə olan tələbatı və ondan səmərəli istifadə perspektivi öyrənilir. Güzəştli kreditlər Maliyyə Nazirliyi, Mərkəzi Bank və İqtisadiyyat və Sənaye Nazirliyinin nümayəndələrindən ibarət yaradılmış Müsabiqə Komissiyası tərəfindən seçilmiş müvəkkil banklar vasitəsilə verilir. Kreditlər sahibkarlıq subyektlərinə illik 7%, kütləvi informasiya vasitələrinin inkişafı yönümlü layihələr üzrə isə




illik 5%-lə milli valyutada verilir. İstifadə istiqamətlərindən asılı olaraq fondun kreditlərinin müddəti Müşahidə Şurasının qərarı ilə artırıla bilər.

Kreditlərin verilməsi prosedurlarının sadələşdirilməsi və digər yeniliklər sahibkarlığa maliyyə dəstəyinin daha da gücləndirilməsinə, sahibkarların güzəştli kreditlərdən çevik və səmərəli istifadəsinə imkan verib. Təkcə 2014-cü ildə sahibkarlara 295 milyon manatdan artıq kredit verilib. 2015-ci ilin birinci yarısında isə sahibkarlara 150 milyon manata yaxın kredit verilib.

Ümumilikdə son 10 ildə dövlət maliyyəsi əsasında verilmiş güzəştli kreditlərin həcmi 2 milyard manatdan artıq olub. Dövlət xətti ilə sahibkarlara verilmiş güzəştli kreditlər sayəsində sənaye və kənd təsərrüfatında 700-dən artıq istehsal və emal müəssisəsi istifadəyə verilib, regionlarda 100 mindən çox iş yerinin yaradılması təmin olunub.

Qarşıdakı ildə dövlət maliyyəsi əsasında verilmiş güzəştli kreditlərlə bərabər, Sahibkarlığa Kömək Milli Fondunun özünün vəsaitləri, yəni qaytarılan kreditlər hesabına təkrar maliyyələşmənin aparılması nəzərdə tutulur. 300 milyon manatdan artıq bu vəsaitlər regionlarda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, sənaye məhəllələrinin və biznes inkubatorlarının yaradılması, «yaşıl market» və logistika mərkəzlərinin təşkilinə yönəldiləcək. Güzəştli kreditlər hesabına maliyyələşdiriləcək layihələrə müasir texnologiyalara əsaslanan investisiya layihələrinə çörək istehsalı zavodlarının, iri taxılçılıq və ya toxumçuluq təsərrüfatlarının, üzümçülük təsərrüfatlarının və üzüm emalı müəssisələrinin, istixana komplekslərinin, südlük və ətlik istiqamətli cins heyvandarlıq komplekslərinin yaradılması daxildir. Güzəştli kreditlər hesabına maliyyələşdiriləcək layihələrə meyvə-tərəvəz emalı müəssisələrinin, sənaye müəssisələrinin yaradılması, kiçik sahibkarlığın və kiçik emal təsərrüfatlarının təşkili də nəzərdə tutulur.

Güzəştli kreditlərin faizlərinin aşağı salınmasından əlavə, gələn il alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi məqsədilə banklarla yanaşı, kənd təsərrüfatı mülkiyyətçilərinə lizinq şirkətləri vasitəsilə texnika alınmasında güzəştli şərtlərin tətbiq olunması, kiçik və orta sahibkarların kredit ittifaqlarına maliyyəyə çıxış imkanlarının daha da artırılması üçün tədbirlər görüləcək. Regional sahibkarlığa güzəştli kreditlərin verilməsində bankların fəallığının artırılması, kreditlərin sığortalanması mexanizminin formalaşdırılması üçün bəzi normativ aktlara və qanunlara əlavə və dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunur. Maliyyə-kredit və bank qurumlarının biznes sektoruna dəstəyinin artırılması, onlara nəzarətin gücləndirilməsi və fəaliyyətlərinin vahid qanunvericilik əsasında tənzimlənməsi üçün Bank Məcəlləsi hazırlanacaq.

Mərkəzi Bank sahibkarlığa ucuz və uzunmüddətli kreditlərin verilməsini artırmaq məqsədilə mərkəzləşdirilmiş kredit fondunun yaradılmasını planlaşdırır.

Sahibkarlığa Kömək Milli Fondunun səlahiyyətlərinin artırılması və iqtisadi layihələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində investisiya layihələrini maliyyələşdirməsi də nəzərdə tutulur. Fond regionlarda innovasiya zonalarının yaradılmasını da maliyyələşdirmək niyyətindədir.

**Elbrus CƏFƏRLİ**

# Aqrar sahədə qaydaların təkmilləşdirilməsinə ehtiyac var

Kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib ki, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə mülkiyyət hüququ yarandıqdan sonra həmin torpaq sahələrinin ardıcıl iki il müddətində istifadəsiz qalmasına yol verilməməlidir. Ölkəmizdə torpaqdan daha səmərəli istifadə olunması məqsədilə Torpaq Məcəlləsi və İnzibati Xətalar Məcəlləsində dəyişiklikləri nəzərdə tutan təkliflər artıq Nazirlər Kabinetinə təqdim edilib. «Bir ildən sonra istifadə edilməyən yararlı kənd təsərrüfatı torpaqlarına cərimələrin tətbiqi nəzərdə tutulur. Bu, Avropa ölkələrində tətbiq olunan qaydadır. Biz də hökumətə müvafiq təklif vermişik».

İqtisadçı ekspert Rəşad Əliyev bunun torpaq bazarına təsiri məsələsinə toxunaraq qeyd edib ki, torpaq bazarının özü də bir neçə seqmentdən ibarətdir və onlardan biri kənd təsərrüfatı torpaqları bazarıdır. «Artıq məlumdur ki, kənd təsərrüfatı torpaqlarının investisiya aləti kimi mövqeyi zəifləyəcək. Çünki bir sıra hallarda bu cür torpaqlar alınıb istifadəsiz saxlanılırdı. Bunun səbəbi gələcəkdə bu torpaqları baha qiymətə satmaq, uzunmüddətli perspektivdə təyinatını dəyişdirmək (məsələn, məskunlaşma zonalarına yaxın ərazilərdə çoxlu sayda kənd təsərrüfatı təyinatlı torpaqlar var ki, onlar sonradan təyinatı dəyişdirilmək üçün alınıb) və ya nə vaxtsa gələcəkdə (4-5 ildən sonra) kənd təsərrüfatı təyinatı üzrə istifadə etmək üçün alınırdı. Bu isə son nəticədə kənd təsərrüfatı torpaqlarının iqtisadiyyat üçün səmərəsiz qalmasına, bəzi hallarda isə bazarda qiymət artımına səbəb olurdu.

Yeni qaydalar təsdiq olunandan sonra mülkiyyətçilərdə kənd təsərrüfatı torpaqlarından məcburi qaydada istifadə öhdəliyi yaranacaq. Bu, gələcəkdə spekulyativ əsaslarla torpaq alınmasının əlverişliliyini azaldacaq. Hazırda mülkiyyətindəki torpağı istifadə etməyənlər vəziyyətdən çıxış yolları axtaracaqlar. Çıxış yollarından biri torpaqların satılması ola bilər. Təklifin artması kənd təsərrüfatı torpaqlarının qiymətində müvəqqəti azalma yarada bilər. Bunun kənd təsərrüfatına müsbət təsirləri olacaq. Ən əsası ona görə ki, kənd təsərrüfatı ilə faktiki məşğul olanlar ucuz qiymətə torpaq əldə edib istehsal fəaliyyətlərini genişləndirəcəklər. Digər tərəfdən isə bu hal bazara daxil olan yeni oyunçuların investisiya xərclərini azaldacaq».

Dünya bazarında enerji daşıyıcılarının qiymətlərinin azalması Azərbaycanda qeyri-neft sektoruna, xüsusən də kənd təsərrüfatına diqqətin daha da artırılmasını aktuallaşdırır. Qanuna dəyişikliklərin təklif olunması da bu zərurətdən irəli gəlir.

**F.CƏBRAYILOVA**

# Elektron ticarət və vergitutma məsələləri

*Son illər dünyada baş verən sürətli iqtisadi proseslər mal, xidmət, işçi qüvvəsi və sərmayə bazarlarının inteqrasiyasını sürətləndirmiş, rəqabət şərtlərini dəyişdirmişdir.*

Qloballaşma nəticəsində kapital və əməyin yüksək dərəcələrlə vergiyə cəlb olunduğu ölkələrdən aşağı vergitutma səviyyəli ölkələrə yönəlməsinin asanlaşması, transmilli korporasiyaların bir məhsulu bir neçə ölkədə istehsal etmə imkanı, internet və elektron ticarətin inkişafı ilə əlaqədar olaraq virtual şirkətlərin ortaya çıxması, bu virtual şirkətlərin hüquqi ünvanının olmaması və ya dəqiq göstərilməməsi, şirkət və müştərilərin ayrı-ayrı ölkələrdə olması və həmin ölkələrin vergi qanunvericiliyinin də bir-birindən fərqlənməsi vergitutma problemlərinin yaranmasına səbəb olur.

Bu hal isə milli iqtisadi struktura əsaslanan vergi sistemlərinə müxtəlif formada təsir edir. Çünki iqtisadi qloballaşma vergi sistemləri arasında birbaşa və dolayı asılılığa səbəb olur. Hər bir ölkənin vergi sisteminin iqtisadi qloballaşma nəticəsində ortaya çıxan yeni iqtisadi struktura uyğun vəziyyətə gətirilməsi daha zəruri hal alır.

Vergilər Nazirliyi Tədris Mərkəzinin Vergi metodologiyası kafedrasının müdiri, kiçik vergi xidməti müşaviri Şaiq Xəlilov mövzunu şərh edərək bildirib ki, e-ticarət birbaşa təmasa girmədən elektron mühitdə həyata keçirilir: «E-ticarətdə fiziki mal ticarəti üçün xarakterik olan tarixi, açıq və sabit coğrafi sərhədlər məfhumu heç bir rol oynamır. E-ticarətin vergiyə cəlb edilməsində ən mühüm problem elektron mühitdə çatdırılan və ya təhvil verilən mal və xidmətlərdən əldə edilən gəlirin vergiyə cəlb edilməsidir. Çünki e-ticarətdə hər bir dövlətin müstəqil vergi siyasətini tətbiq etmək imkanı yoxdur. Həmçinin e-ticarətdə coğrafı sərhədlərin olmaması faktiki olaraq dövlətlərin birgə hərəkət etməsi zərurətini yaradır. Hər bir ölkənin e-ticarəti vergiyə cəlb etmə mövzusunda qəbul etdikləri müəyyən kriteriyalarla bərabər, inkişaf etmiş ölkələr arasında ortaq prinsiplər də vardır.

E-ticarətin vergiyə cəlb edilməsi üçün əvvəlcə verilənlər bazası və ya informasiya mübadiləsinin həyata keçirilməsi lazımdır. Verilənlər bazası isə digital olaraq dəyişdirilmiş hər cür mal və xidməti ifadə edir».

E-ticarətdə mal və xidmətləri bir-birindən ayırd etmək mümkün olmadığından elektron mühitdə həyata keçirilən bütün alqı-satqı verilənlər bazasının mübadiləsi olaraq qəbul edilir.

İnternetdə vergi hadisəsinin müəyyən edilməsində ortaya çıxan əsas çətinlik ənənəvi ticarəti vergiyə cəlb edən qanunvericiliyin elektron ticarəti əhatə edə bilməməsidir: «Mövcud vergi qanunvericiliyinin əksəriyyətinin məkan və vergi ödəyicilərinə görə formalaşması məsələsi elektron ticarətin vergiyə cəlb edilməsində problemlər yaradır. E-ticarətlə məşğul olanların mövcud vergi qanunvericilikləri içində yeri və mövqeyinin qeyri-müəyyən olması və vergi hadisəsi ilə vergi öhdəliyinin yaranması arasındakı əlaqənin olmaması vergi ödəyicilərinin təsbit olunmasına imkan vermir.

İnternetdə ticarəti həyata keçirilən malların böyük bir hissəsi rəqəmsallaşmış (digital) mallardır. Elektron ticarət mühitində alqı-satqısı həyata keçirilən əllə tutulması mümkün olmayan malların digər fiziki mallarla eyni şərtlərdə vergiyə cəlb edilməsi mövzusunda mübahisə gündəlikdədir.

Vergi öhdəliyinin yaranmasını müəyyən edib, verginin məbləğini hesablamaq üçün əvvəlcə vergi ödəyicisinin və vergiyə cəlb ediləcək gəlirin müəyyən edilməsi lazımdır», - Ş.Xəlilov bildirmişdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Model Sazişinə görə, sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyəti, ticarət fəaliyyəti və muzdlu işlə əlaqədar əldə edilən gəlirlərin əldə edildiyi ölkədə vergiyə cəlb edilməsi iş yeri və daimi yaşayış yeri kriteriyaları ilə müəyyən edilir. Bu kriteriyaların əsas xüsusiyyəti fəaliyyətin coğrafi baxımdan müəyyən bir yerə bağlı həyata keçirilməsidir. Bu isə elektron ticarətin həyata keçirildiyi mühitlə üst-üstə düşmür.

Ş.Xəlilov açıqlamasında qeyd etmişdir ki, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərin vergiyə cəlb edilməsində əsas götürülən iş yeri kriteriyası elektron ticarəti vergiyə cəlb edə bilmədiyinə görə və həmçinin mənbə ölkənin də vergiyə cəlb etmə mərhələsində nə dərəcədə effektiv olacağı təsbit edilmədiyinə görə bu mövzuda yeni bir qanunvericilik bazasının yaradılması məsələsi müzakirə obyekti olaraq mühüm əhəmiyyət kəsb edir: «Ölkələr arasında mal və xidmət mübadiləsinin və ya ticarətinin mütənasib olduğu hallarda buna ehtiyac duyulmur. Amma bu mal və xidmət mübadiləsinin və ya ticarətinin ölkələrin iqtisadi inkişaf səviyyələrindən asılı olaraq müxtəlif nisbətdə olduğu indiki halda vergi qanunvericiliyi bazasının necə olması ilə vergi gəlirləri səviyyəsinin təsbit edilməsinin əhəmiyyəti öz aktuallığını qoruyur».




Ş.Xəlilovun sözlərinə görə, İƏİT-in beynəlxalq alqı-satqı əməliyyatlarını internet vasitəsi ilə həyata keçirən müəssisələrin vergiyə cəlb edilməsi baxımından qəbul etdiyi qərara görə internet şəbəkəsinin müəyyən şərtlər daxilində iş yeri sayılması ilə yanaşı, həmin şəbəkənin müəyyən bir müddət satış əməliyyatının həyata keçirildiyi ölkədə olması şərti də tələb olunur. Burada nəzərdə tutulan «müəyyən bir müddət» müxtəlif ölkələrin vergi qanunvericiliklərinə görə fərqlidir: «Digital malların beynəlxalq bazarlarda satışını həyata keçirən müəssisələrin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədi ilə qəbul edilmiş bu qərar sayəsində belə müəssisələrin vergiyə cəlb edilməsi və ya ikiqat vergitutma probleminin həll edilməsi mümkün olur.

Elektron mühitdə həyata keçirilən fəaliyyətdən əldə edilən gəlirin vergiyə cəlb edilməsi ilə bağlı ortaya çıxan digər problem isə əldə edilən gəlirlərin mahiyyətidir. Gəlir və mənfəətin mahiyyətinin müəyyən edilməsi üçün həyata keçirilən fəaliyyətin nəticəsində alınan ödəmənin mahiyyətinin təsbit edilməsi lazımdır.

İƏİT ölkələri ilə ABŞ qeyri-maddi aktivlərlə ticarət fəaliyyətlərindən əldə edilən gəlirləri eyni cür vergiyə cəlb edirlər. Ancaq bəzi vergi sazişlərində başqa bir ölkədə qeyri-maddi aktivlərin təqdim edilməsindən əldə edilən gəlirlərin elektron ticarəti həyata keçirənin həmin ölkədə yaşayış yerinin olub-olmamasına baxılmadan vergiyə cəlb edildiyi görünməkdədir. Məsələn, ABŞ-Fransa, ABŞ-Kanada arasındakı vergi sazişlərinə görə, bu ölkələrin hər hansı birində əldə edilən royaltilər elə həmin ölkədə də vergiyə cəlb edilir».

Fiziki və hüquqi şəxslərə aid ticarət gəlirinin necə müəyyən olunacağı Vergi Məcəlləsinin müvafiq maddələrində öz əksini tapmışdır. Həmçinin model sazişində ticarət gəlirlərinin mənbə ölkə tərəfindən vergiyə cəlb edilməsi üçün əsas şərt kimi gəlirin bir iş yeri vasitəsi ilə əldə edilməsi prinsipi qeyd olunur. Sonra isə vergi bazasının müəyyən edilməsi ilə əlaqədar maddələr üzərində durulur. Yəni vergi bazasının müəyyən edilməsinə aid maddələrdə vergi bazasının mümkün dərəcədə faktiki və ehtimal edilən gəlirlər nəzərə alınmaqla təsbit edilməsi vurğulanır. «Mövcud qanunvericilikdə gəlirin əldə edildiyi yer (gəlirin mənbəyi) ənənəvi iş strukturu diqqətə alınaraq müəyyən edilmişdir. Gəlirin əldə edilməsi ilə bağlı olan fəaliyyət ilə əlaqədar olaraq alqı-satqının müxtəlif yerlərdə həyata keçirildiyi elektron ticarət mühitində gəlirin nə miqdarda, hansı yer ilə əlaqəli olmasının təsbiti çətindir. Digər tərəfdən, bu ticarət fəaliyyətlərinin texnoloji innovasiyalardan istifadə etməklə iş yeri ilə əlaqələndirilməni qismən və ya tamamilə aradan qaldıracaq şəkildə təşkil edilməsi də mümkündür. Bu vəziyyətdə «iş yerinə» istinad şərti qəbul edildiyi təqdirdə mənbə ölkəsinin mənafeyinə zidd vəziyyət yaranacaqdır. Odur ki, gəlirin əldə edilmə yerinin təsbiti qanunvericiliklərdəki yeni dəyişmələrdə paralel şəkildə gözdən keçirilməlidir.

Burada vurğulamaq lazım gələn məsələ istər eyni şirkət tərkibində mərkəz ilə şöbələr arasındakı əməliyyatlarda, istərsə də əlaqəli şirkətlər arasındakı əməliyyatlarda «transfert qiymət» tətbiqinin aktual olmasıdır. Bununla daha mütərəqqi vergi sisteminə sahib olan ölkədə malın qiyməti faktiki dəyərindən artıq göstərilir. Vergi dərəcələrinin yüksək olduğu ölkələrdə isə yüksək qiymətləndirilən istehsal vasitələri xərclər olaraq göstərilərək gəlir daha az bəyan edilir və nəticədə firmanın ödəyəcəyi vergi miqdarı aşağı göstərilir. Bu isə vergidən yayınmaqla bərabər, vergi yükünün bölüşdürülməsində də ədalətsizliyə səbəb olur. Texnologiyanın inkişafının indiki mərhələsi həyata keçirilən fəaliyyətlər zamanı «vergi cənnətlərinə» və ya vergidən yayınmaya imkan verən amillərə şərait yaradır. Buna görə də müvafiq tədbirlər görülmədikdə vergi gəlirlərinin azalması ilə bağlı müxtəlif problemlərin mövcudluğu da davam edir».

**Fəxriyyə İKRAMQIZI**

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaq vergisi

***Oğuz rayonunda mülkiyyətimdə kənd təsərrüfatı təyinatlı torpaq və həyətyanı sahə var. Torpaq vergisini hansı dərəcələr üzrə ödəməliyəm?***

Torpaq vergisinin hesablanması qaydası Vergi Məcəlləsinin (VM) 203-208-ci maddələrində müəyyən edilmişdir. 203.1-ci maddəyə əsasən, torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır. Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar (VM, maddə 203.2).

Torpaq vergisinin dərəcəsi isə VM-in 206-cı maddəsində müəyyən edilmişdir. Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilir (VM, maddə 206.1).

Kənd təsərrüfatı torpaqları üzrə şərti ballar kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 nömrəli Qərarı ilə «Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları» təsdiq edilmişdir. Həmin Qərarla Oğuz rayonunun düzən torpaqlarına aid olan torpaq sahələrinə görə torpaq vergisinin hesablanması üçün əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların 1 hektarına I keyfiyyət qrupu üzrə 180 şərti bal, II keyfiyyət qrupu üzrə 115 şərti bal, III keyfiyyət qrupu üzrə 50 şərti bal, IV keyfiyyət qrupu üzrə 15 şərti bal, dağ torpaqlarına aid olan torpaq sahələrinə görə torpaq vergisinin hesablanması üçün isə əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların 1 hektarına I keyfiyyət qrupu üzrə 200 şərti bal, II keyfiyyət qrupu üzrə 150 şərti bal, III keyfiyyət qrupu üzrə 90 şərti bal, IV keyfiyyət qrupu üzrə 25 şərti bal müəyyən edilmişdir.

VM-in 206.3-cü maddəsinə uyğun olaraq 206.1-ci maddədə nəzərdə tutulmuş torpaqlar (kənd təsərrüfatı təyinatlı torpaqlar) istisna olmaqla rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə vergi həmin torpaqların hər 100 kvadratmetrinə görə torpaq sahəsi 10000 m²-dək olduqda 0,1 manat, 10000 m²-dən yuxarı olan hissə üçün 0,2 manat olmaqla hesablanır.

Fiziki şəxslərin torpaq vergisi qanunla yerli vergilərə (bələdiyyə vergilərinə) aid edilir (VM, maddə 8.1.1). Müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır (VM, maddə 208.3)

Vergi Məcəlləsinin 208.5-ci maddəsində göstərilir ki, torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir.

Fiziki şəxslərin torpaq vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir (VM, maddə 208.6)

# Əmək müqavilələri vergitutma bazasının genişlənməsinə xidmət edir

*İşçi qəbulu zamanı əmək müqaviləsinin bağlanmaması və bu məsələdə gizli razılaşmaların olması, nəticə etibarilə gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsi ilə yanaşı, vətəndaşların hüquqlarının kobud şəkildə pozulmasına gətirib çıxarır.*

Beləliklə də qanunvericiliyin tələblərinə riayət olunmur, dövlətə külli miqdarda ziyan dəyir. Ölkə başçısı məhz bu kimi amilləri nəzərə alaraq «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» fərman imzalamışdır və bu sənəddə Vergilər Nazirliyinə əmək müqaviləsi bağlanılmadan fiziki şəxslərin işə cəlb edilməsinə nəzarəti gücləndirmək tapşırığı verilmişdir.

Prezident İlham Əliyev bildirmişdir ki, iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, maaşların qeyri-leqal şəkildə verilməsi vergilərdən yayınmaya, ölkənin bugünkü sosial vəziyyətinin real əks etdirilməməsinə səbəb olur. Buna görə də vergitutma bazasının genişləndirilməsi ilə bağlı vergi orqanlarının üzərinə konkret vəzifələr qoyulmuşdur. Tapşırıqların icrası, vergidən yayınma hallarının, əlavə vergi potensialının müəyyən edilməsi, işçi sayının və iş yerlərinin düzgün rəsmiləşdirilməsi məqsədilə vergilər nazirinin əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» tədbirlər planı təsdiq olunmuş və bu sahəyə çevik nəzarətin təmin edilməsi üçün qərargah yaradılmışdır.

Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində 2014-cü ildə 3490 vergi ödəyicisi tərəfindən 4751 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi müəyyən edilmişdir. 2015-ci ilin altı ayı ərzində 2887 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi aşkarlanmış və qanunun tələblərinə uyğun tədbirlər görülmüşdür.

Nəzarət tədbirləri ilə yanaşı, maarifləndirmə və məlumatlandırma işləri də davam etdirilmişdir və bu istiqamətdə həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Artıq hər kəsin əmək müqaviləsi olmadan çalışmanın gələcəkdə öz həyatında hansı fəsadlara yol açacağı barədə müəyyən təsəvvürü var. Elə işəgötürənlər də işçilərlə əmək müqaviləsi bağlamadan fəaliyyətin hansı nəticələrə gətirib çıxaracağını dərk edirlər.



Nazirlikdə «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» adlı layihə hazırlanmış, sahibkarların ictimai təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilmişdir. Vergi ödəyicilərinin istənilən vaxt, istənilən yerdən, istənilən növ informasiyaya çıxışını təmin etmək günün ən vacib məsələlərindən olduğu üçün nazirlik mövcud məlumat mənbələrindən: «195» Çağrı Mərkəzi, taxes.gov.az veb saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, «Vergi dostları» şəbəkəsindən, sosial mediadan geniş istifadə edir. Böyük auditoriyaya malik Facebook, Twitter sosial şəbəkələrində, Youtube və video.az video hostinq səhifələrində Vergilər Nazirliyinin səhifələri yaradılmışdır və istifadəçilər arasında təbliğat işləri aparılır. Mesaj xidməti vasitəsilə bu xidmətlər göstərilir:

- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların səsli mesajla göndərilməsi;
- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların ünvanlı şəkildə SMS ilə göndərilməsi;
- İktərəfli SMS xidmətinin abunəçilərinə xatırlatmaların mütəmadi göndərilməsi və abunə olmadan qeydiyyatdan keçmiş vergi ödəyicilərinin SMS sorğularının SMS ilə cavablandırılması.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən olunmuş vəzifələrdən biri də əmək bazarında baş verən dəyişikliklərə uyğun tədbirlərin görülməsidir. Əmək bazarındakı vəziyyət ciddi təhlil olunacaq, perspektiv inkişaf üçün hansı addımların atılması müəyyənləşdiriləcəkdir. Gələcəkdə bu sıra qanunvericilik aktlarında əlavə və dəyişikliklərin edilməsi də istisna olunmur.

Vergi ödəyiciləri təkcə cərimələrlə, inzibati yollara yox, daha səmərəli iqtisadi mexanizmlər tətbiq etməklə onlar ödənişləri yerinə yetirməyə təşviq ediləcəklər. Başlıca məqsəd isə əmək bazarını daha da canlandırmaq, işçilərin sosial hüquqlarını qorumaq, vergi və digər ödənişlərin həyata keçirilməsinə, bu ödənişlər hesabına dövlət büdcəsinin artımına nail olmaqdır.

**Rəşad SADIQOV**

# Deflyasiya nədir?

Deflyasiya inflyasiyanın əksi olaraq, mal və xidmətlərin azalmaması halında qiymətlərin ümumi səviyyəsinin aşağı düşməsi və ya pulun dəyərinin artması prosesidir. İnflyasiyanı ölçmək üçün «İstehlak qiymətləri indeksi»ndən istifadə olunur. Azərbaycanda bu göstərici Dövlət Statistika Komitəsi tərəfindən «istehlak səbəti» əsasında aylıq əsasda hesablanır və ictimaiyyətə təqdim olunur. İstehlak səbətinə bütün zəruri tələbat malları və xidmətləri daxil edilir. Hər bir mal və xidmət «istehlak səbəti»ndə xüsusi çəkiyə malikdir.



Deflyasiyadan ehtiyatlı olmaq lazımdır. Çünki:

- İstehlakçıların perspektivdə qiymətin enməsinə arxayın olaraq əmtəələri almağa tələsmədikləri halda, sonraya saxlanılmış tələb əmələ gəlir, əmtəələrə olan tələb isə azalır. Bundan başqa, qiymətlər də tələbin azalması sayəsində aşağı düşür;
- Əməkhaqqı ilə bağlı proqnozlar azalır və istehlakçılar pulu xərcləmək əvəzinə, yığıb saxlamağa daha çox meyilli olurlar. Məsələn, ABŞ-ın iqtisadi artımının 70%-i istehlak üzərində qurulub və bu, ölkə ÜDM-nin ümumilikdə azalması ilə nəticələnə bilər;
- Bank kreditləri verilməsinin həcmi də azalır, çünki kreditlərin özlərindən çox olan faizləri qaytarmaq borc alanlara əlverişli deyil;
- Aldıqları əmtəənin zaman keçdikcə qiymətinin azalması sayəsində alıcılar itkiyə məruz qalırlar;
- Borc alanın borcu nə qədər çox olsa, bir o qədər pisdir: deflyasiya zamanı əməkhaqqı azalır, borc isə əvvəlki səviyyədə qalır;
- İnflyasiya zamanı faiz dərəcələrinin yuxarı həddi yoxdur, deflyasiya zamanı isə onlar sıfıra yönəlir. Banklar 0% kredit vermirlər, dərəcələr sıfırdan yuxarı olduqda isə banklar pul qazanırlar, lakin borc alanlar burada itkiyə məruz qalırlar;
- Şirkətlərin mənfəətləri deflyasiya zamanı da azalır və bu, qiymətli kağızların qiymətlərinin azalmasına gətirib çıxarır. Nəticədə öz gəlirlərini dividendlər hesabına saxlamaq istəyən xüsusi investorlar üçün narahatlıq yaranır;
- Şirkətlərin mənfəət əldə etmək mübarizələri zamanı işsizlik artır, əməkhaqqı isə azalır. Bu proseslər iqtisadiyyata bütövlükdə neqativ təsir göstərir;
- Əmtəələrə tələbin artması alıcı xərclərinin aşağı düşməsinə, investisiyaların və dövlət xərclərinin azalmasına səbəb ola bilər. Adətən, deflyasiyanın resessiya və iqtisadi depressiya ilə assosiasiya edilməsinə baxmayaraq, bəzi şərtlərin olduğu halda, o müəyyən əmin-amanlıq dövrlərində də müşahidə oluna bilər;
- İnsanlar deflyasiyanın öhdəsindən gəlmək üçün öz işini əldən verməməli və mümkün qədər az borc almalıdırlar. Qənaət edərək pul yığmaq və iri aşyaların alınmasını sonraya saxlamaq lazımdır, lazım olmayan aktivləri isə qiymətdən düşməmiş satmağa dəyər.

**BANKER.AZ**

# Marketinqin gözəgörünməz qaydası: müştəri məmnunluğu

Dünyada ilk dəfə marketinq kursları 1902-ci ildə Amerika Birləşmiş Ştatlarında fəaliyyətə başlayıb. 1926-cı ildə ABŞ-da marketinq və reklam üzrə milli assosiasiya, onun nəzdində Amerika marketinq cəmiyyəti yaradılıb. 1973-cü ildə isə bu cəmiyyətin adı dəyişdirilərək Amerika marketinq assosiasiyası adlandırılıb.

Bundan sonra Qərbi Avropada, Kanadada, Avstraliya və Yaponiyada da bu cür qurumlar yaradılıb.

Sonralar marketinq menecment çərçivəsində iqtisadi nəzəriyyələr və təsərrüfatın ayrı-ayrı sahələrinin sintezi olaraq inkişaf etməyə başladı. 1940-1950-ci illərdə marketinq idarəetmə nəzəriyyəsi ilə birləşərək, idarəetmənin marketinq-menecment adlı yeni bazar yönümlü nəzəriyyəsi yaradıldı. 1960-1970-ci illərdə bazar və onun ətraflı təhlili ilə məşğul olan iqtisadçılar marketinqə müştəriləri ilə uzunmüddətli iqtisadi əlaqələrin inkişafı üçün bazar seqmentasiyası təşviq proqramlarını əlavə etdilər. Alıcı kreditləşməsi, satış sonrası xidmət və s. kimi üsullar hazırlandı.

İqtisadçı ekspert Fəxri Ağayev marketinq sözünün 1000-dən çox açıqlaması olduğunu bildirir: «Bu sözün ümumi və elmi açıqlaması belədir: məhsulların və xidmətlərin alıcılara təqdim edilməsi və satılması səbəb ilə proseslərin və fəaliyyətlərin toplusu. Geniş anlamda baxsaq, marketinqin məqsədi insanların və cəmiyyətin ehtiyaclarının qarşılanmasıdır. Başqa sözlə, marketinq müəyyən həyat tərzi və standartlarının insanlara və cəmiyyətə satılmasıdır.

Müəssisə daxilində marketinqin bir sıra funksiyalarından istifadə olunur: bazar araşdırılmalarının aparılması, yeni bazarların analizi, hədəf seqmentlərin seçilməsi, istehlakçı haqqında dəqiq məlumatların alınması, istehlakçı davranışları alqoritmi və qərarvermə mexanizmləri öyrənilməsi, istehlakçı məmnunluğunun ölçülməsi, marketinq strategiyası və rəqabət prinsiplərinin hazırlanması, məhsul və xidmətlər üzərində işin aparılması və s. Bu funksiyaların hansından daha çox istifadə edilməsi və üstünlük təşkil etməsi bir çox meyarlara bağlıdır: şirkət fəaliyyətlərinin hansı mərhələdə olması, məhsul və ya xidmətlər haqqında alıcıların məlumatlı olması və bunların qiymətlərinə qarşı həssas olmaları, məhsul (xidmət) bazarında rəqabətin gücü və intensivliyi və s.»



Bəs müəssisə daxilində marketinqin strateji planı nəyə əsasən hazırlanmalıdır?

F.Ağayevin sözlərinə görə, strateji planlaşdırma idarəçilik sahəsinə aid əsas funksiyalardan biridir və başlıca məqsədi şirkətin əsas məqsədlərinin müəyyən edilməsi və bu məqsədlərə çatma yollarının planlaşdırılmasıdır. «Strateji planlaşdırma bir çox idarəçilik qərarları, şirkət funksiyaları, motivasiya və nəzarət üçün ciddi bünövrə təşkil edir. Strateji planlar qarşıda açılan imkanların və risklərin, təhlükələrin nəzərə alınması ilə şirkətin gələcək üçün məqsədlərini müəyyən edir».

Hazırda, demək olar ki, bütün müəssisələr marketinqin bir çox funksiyalarından istifadə edirlər: bəzi müəssisələr reklamı, bəziləri münasib qiyməti, bəziləri keyfiyyəti, bəziləri isə sosial fəaliyyəti əsas tutaraq bazarda mövqe qazanmaq və ya öz mövqelərini saxlamaq istəyirlər. Lakin unudulması mümkün olmayan gözəgörünməz bir qayda var: müştəri məmnuniyyətinin təmin olunması. Müştəri məmnunluğu məhsulun keyfiyyəti, məhsulun istehlakçıya vaxtında çatdırılması, məhsul və xidmət alındıqdan sonra onun istifadəsi haqqında müştəri rəyi və təklifləri, müştərinin şirkətdən gözlədiyi və arzu etdiyi əlavə xidmətlər haqqında məlumatların əldə edilməsi sayəsində təmin edilməlidir.

Müasir dövr biznesdən çox sataraq çox müştəri əldə etməyi deyil, müştərini məmnun salaraq çox satmağı tələb edir».

**Fəxriyyə İKRAMQIZI**

# Bank əməliyyatları və vergitutma

Bank əməliyyatlarında gəlir və mənfəət vergisi üzrə ötən əsrin 80-ci illərindən başlanan və inkişaf etmiş ölkələri əhatə edən köklü vergi islahatları bu gün də davam etdirilir. Həmin ölkələrdə gəlir və mənfəət vergisi üzrə həyata keçirilən dəyişikliklər bank əməliyyatlarında vergitutmadan da yan keçməyib. Çünki əsas bank əməliyyatları - passiv və aktiv əməliyyatlar müxtəlif fiziki və hüquqi şəxslər üçün gəlir, kredit təşkilatları üçünsə son nəticədə mənfəət yaranması ilə nəticələnir. Yəni müştərilər gəlir və ya mənfəət, kredit təşkilatı isə mənfəət vergisi ödəyicisinə çevrilir. Ancaq ümumi əsaslarla yanaşı, bank əməliyyatlarından vergi tutulması spesifik xüsusiyyətlərə malik olur və həmin spesifik cəhətlər faiz gəlirlərinin vergiyə cəlb olunmasında xüsusilə aşkar görünür.

Azərbaycan Dövlət İqtisad Universitetinin Bank işi kafedrasının dosenti Zakir Zeynalovun sözlərinə görə, bəzi inkişaf etmiş ölkələrdə, məsələn, Almaniyada islahatlar sahibkarlara gəlir və ya mənfəət vergisi ödəməyi seçmək imkanı verir. Vətəndaşlar vergitutmanın müxtəlif formalarında - korporativ vergi ilə yanaşı, gəlir vergisi ödəmək öhdəliyinə malikdirlər.

başqa hüquqi və fiziki şəxslər kimi fəaliyyətləri üçün gərək olan məhsul və xidmətləri əldə edərkən malın qiyməti daxilində ƏDV ödəyirlər. Digər tərəfdən, maliyyə xidmətlərinin ƏDV-dən tam azad edilməsi bütün ölkələri əhatə etmir. Bir sıra ölkələrdə ƏDV güzəştlərinə cəlb olunmayan maliyyə xidmətlərinin çeşidi artırılıb. Kanada, Sinqapur, Avstraliya və s. ölkələrdə belə bir təcrübədən istifadə olunur. ƏDV güzəştləri əvəzində xüsusi vergilərin tətbiqi praktikası da mövcuddur. Məsələn, Fransada bu məqsədlə maliyyə vasitəçiliyi ilə məşğul olan təşkilatların əməkdaşlarının əməkhaqqına xüsusi vergilər qoyulur.

Bir çox bank əməliyyatlarının, daha dəqiqi, banklar tərəfindən göstərilən xidmətlərin ƏDV-yə cəlb edilməsi texniki cəhətdən çətinlik yaratmır və bu tip xidmətlər bəzi ölkələrdə ƏDV-yə cəlb olunur. Məsələn, Ukraynada qiymətlilərin saxlanması, yubiley sikkələrinin satışı, operativ lizinq və s. əməliyyatlardan ƏDV tutulur. Latın Amerikasının bəzi ölkələrində bir sıra bank əməliyyatlarından - bank hesabından vəsaitlərin silinməsindən, nağd vəsaitlərin götürülməsindən və s.-dən ƏDV tutulur. Ötən əsrin 90-cı illərindən bu cür tədbirlər Argentina, Braziliya, Kolumbiya, Venesuela kimi ölkələrdə tətbiq olunub. Bank transaksiyalarına ƏDV-nin dərəcəsi 0,2-2% həddində müəyyən edilib və müxtəlif ölkələrdə fərqli bank əməliyyatlarını əhatə edib. Məsələn, Kolumbiyada əmanət faizləri üzrə müştərinin hesabına köçürülən vəsaitlər ƏDV-yə cəlb edilir, Ekvadorda isə hətta hesaba daxil olan vəsaitlərdən də ƏDV tutulur. Argentinada da həm debet, həm də kredit transaksiyalarına ƏDV tətbiq olunur. 2001-ci ildən Argentinada bu vergi 0,6%, Braziliyada 0,36%, Venesuelada 0,75% dərəcələrlə tutulur. Bu verginin müsbət fiskal nəticələri (ÜDM-in 1%-nə yaxın vergi daxilolmalarının əldə edilməsi), neqativ nəticələrdən (iqtisadi artıma mane olması) aşağı olub.

Bəs bu sahədə Azərbaycanda vəziyyət necədir? Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi Samirə Musayevanın sözlərinə görə, yerli bankın, eləcə də xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə hesablanmış faizlər illik məbləğinə 500 manat güzəşt tətbiq edilməklə ödəmə mənbəyində vergiyə cəlb olunur. Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

Məcəllənin 123.1-ci maddəsində qeyd olunur ki, rezident kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən gəlir Məcəllənin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, 102.1.22-ci maddədə nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

*Azərbaycanda fiziki şəxslərin əmanətləri üzrə hesablanmış faizlər illik məbləğinə 500 manat güzəşt tətbiq edilməklə ödəmə mənbəyində vergiyə cəlb olunur*

Vergitutmadakı bu məqamlar və faiz xərclərinə qanunvericiliklə verilən güzəştlər başqa növ bank əməliyyatlarını - kredit alınmasını stimullaşdıran əsaslı amillərdəndir. İnkişaf etmiş ölkələrdə fərqli məqsədlər üzrə alınan borclara görə faizlərin vergi bazasından tam və ya qismən çıxılması kreditlərin maliyyələşdirmə mənbəyi kimi cəlbediciliyini kifayət gədər yüksəldir.

Bank əməliyyatlarına ƏDV tətbiqinin spesifik cəhəti ondan ibarətdir ki, əksər maliyyə xidmətlərindən ƏDV tutulmur. Avropa Birliyi (AB) zonasında kreditlərin verilməsi, bank zəmanətləri, ödənişlər, pul baratları, çeklər, və s. ƏDV ödəmələrinə cəlb olunmur. Bununla yanaşı, ƏDV-nin kredit təşkilatlarına tam aid olmadığını iddia etmək olmaz. Bir tərəfdən, kredit təşkilatları da

Məcəllənin 150.1.5-ci maddəsinə əsasən, hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və ya sahibkarlar ödəmə mənbəyində vergini tutmağa borcludurlar. Məcəllənin 150.3.2-ci maddəsinə görə, ödəmə mənbəyində vergi tutan hüquqi şəxslər, fərdi sahibkarlar və xüsusi notariuslar 150.1.3-150.1.7-ci maddələrə uyğun olaraq, gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergini büdcəyə köçürməyə və həmin müddətdə vergi orqanına ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamə verməyə borcludurlar.

**Fəxriyyə İKRAMQIZI**

# Banklarda hansı hesabları açmaq mümkündür?

Son zamanlar bank sahəsində populyar olan suallardan biri də bank hesabının açılması ilə bağlıdır. Sualın cavabını «banker.az» portalından götürmüşük.

Ümumiyyətlə, əməliyyatdan asılı olaraq müxtəlif növdə olan hesablar açmaq mümkündür. Bütün banklarda hesablar milli və yaxud xarici valyutada açılır. Bankların aça biləcəyi hesablar isə aşağıdakılardır.

Cari hesablar - dövlət və bələdiyyə orqanlarının, hüquqi şəxslərin, onların filial, nümayəndəlik və digər ayrıca bölmələrinin, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır. Cari hesablara müvəqqəti cari hesablar və xüsusi cari hesablar da aiddir.

Müvəqqəti cari hesablar təsərrüfat ortaqlıqları, cəmiyyətləri, kooperativlər və digər təsərrüfat subyektlərinə onların dövlət qeydiyyatına alınanadək müvafiq olaraq nizamnamə, şərikli kapitallarının, habelə paylarının ödənilməsi üçün açılır.

Xüsusi cari hesablar isə dövlət və xüsusi notariusların notariat fəaliyyətləri ilə əlaqədar olaraq notariat orqanlarına açılır.



*Bankların aça biləcəyi digər hesablar isə bunlardır:*

- Cari subhesablar
- Ssuda hesabları
- Əmanət hesabları
- Müxbir hesabları

Cari subhesablar əsasən, hüquqi şəxslərə onların regional fəaliyyətləri ilə əlaqədar filial və nümayəndəlik statusu daşımayan yerli qurumlarına açıla bilər.

Ssuda hesabları bankın müştərilərə verdiyi kreditlərin uçotu üçün, kredit müqaviləsində nəzərdə tutulduğu hallarda isə kredit vəsaitlərinin istifadəsi və ödənilməsi ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır.

Əmanət (depozit) hesabları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, bank əmanəti (depozit) müqaviləsinə əsasən, müştərilərin bank əməliyyatlarının aparılması üçün açılır.

Müxbir hesabları bankların özlərinin və müştərilərinin apardıqları bank əməliyyatlarının uçotu hesabıdır. Müxbir hesabları banklar üçün açılır.

# Sahibkarların işləri asanlaşdırılır

*Sahibkarlığın inkişafına dövlət dəstəyinin göstərilməsi, onların hüquqlarının qorunması Azərbaycan hökumətinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindəndir. Son illər sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün mühüm addımlar atılır, biznesə başlama prosedurları sadələşdirilir, qanunvericilik təkmilləşdirilir.*

***Sahibkarların məlumatlandırılması və maarifləndirilməsi ən vacib məsələlərdəndir***

Vergilər Nazirliyi sahibkarların məlumatlandırılması işinin günün tələbləri səviyyəsində qurulması üçün elektron informasiya məkanından geniş istifadə edir. Vergilər barədə məlumat bazasının yaradılması, vergi orqanları ilə vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqələrin intensivləşdirilməsi və genişləndirilməsi bu məqsədlərə xidmət edir. Hazırda vergi ödəyicilərinin nazirliyin www.taxes.gov.az rəsmi internet saytı vasitəsilə vergilər naziri ilə birbaşa əlaqə yaratmaq, vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı və vergi orqanı əməkdaşlarının fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə Vergi Apelyasiya Şurasına müraciət etmək və video-qəbuldan yararlanmaq imkanları vardır. «Facebook» sosial şəbəkəsində isə Vergilər Nazirliyinin Azərbaycanın vergi sisteminin təbliği ilə bağlı geniş məlumat bazası yerləşdirilib. Hətta vergi ödəyicilərinin mobil telefonlarına belə vergilərlə bağlı informasiyalar göndərilməklə onlar vaxtında məlumatlandırılır.

Vergi ödəyicisi və ya hər hansı vətəndaş Vergilər Nazirliyinə müraciət ünvanladığı halda ona 3 gün müddətində ilkin cavab məktubu göndərilir. Həmin məktubda müraciətin icraata qəbulu, ona hansı idarədə və ya şöbədə, hansı əməkdaş tərəfindən baxıldığı, həmin əməkdaşın əlaqə nömrələri öz əksini tapır. Beləliklə, vətəndaş öz müraciətinin icra vəziyyətinə nəzarət imkanı əldə edir. Həmçinin vergi ödəyiciləri onları narahat edən vergi məsələləri ilə bağlı 195 Çağrı Mərkəzindən günün 24 saatı ərzində məlumat ala bilirlər. Müraciətinə verilən ilk cavabdan razı qalmayan vergi ödəyicisinin Vergilər Nazirliyinə ünvanladığı təkrar müraciətinə isə Vergi Apelyasiya Şurasında baxılır və müvafiq qərar qəbul edilir.



Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə mütəmadi olaraq regionlarda sahibkarlarla və sahibkarların ictimai təşkilatları ilə müxtəlif mövzularda görüşlər keçirilir, «dəyirmi masa»larda diskusiyalar təşkil olunur. Vergi ödəyiciləri üçün keçirilən «Açıq qapı günü» tədbirlərində ictimai təşkilatların nümayəndələri ilə yanaşı, kütləvi informasiya vasitələrinin əməkdaşlarının da yaxından iştirakı təmin olunur. «Vergi klubu»nun yaradılması sahibkarların rəy və təkliflərinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Vergi ödəyiciləri keçirilən tədbirlər çərçivəsində özəl istehsal sahələrinin inkişafı üçün təkliflər verir, maliyyə-bank, sığorta, vergi, gömrük, kredit, audit və digər sahələrdə tərəfdaşları ilə birgə layihələrin təşkilində mühüm əməkdaşlıq əlaqələri qura bilirlər.

***Sahibkarlar vergi orqanına getmədən dövlət qeydiyyatına alına bilirlər***

Son illər vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti sahibkarlıq subyektlərinin inkişafına xidmət edir. Xatırladaq ki, hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialının dövlət qeydiyyatına alınma müddəti 3 gündən 2 günə, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınma müddəti isə sürətli elektron dövlət qeydiyyatı zamanı 3 gündən dərhala, adi elektron dövlət qeydiyyatı isə 3 gündən 1 günə qədər azaldılıb. Dövlət qeydiyyatı ilə bağlı inzibati reqlamentlər, qeydiyyat ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə və qərar formaları və s. hazırlanıb, hər kəsin istifadə edə bilməsi üçün Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilib. Sahibkarların kommersiya hüquqi şəxs yaratmaq üçün hazırladıqları sənədlərin qeydiyyat orqanına gəlmədən yoxlanılması üçün Vergilər Nazirliyinin rəsmi internet saytında idarənin hüquqşünaslarının elektron ünvanları qoyulub. Bundan başqa, vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxslərə geniş məlumatlar verərək onları maraqlandıran bütün suallara ətraflı cavablar verirlər.

***Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa yönəlib***

Vergi güzəştləri özündə iki əsas istiqaməti əks etdirmişdir. İlk növbədə vergi güzəştləri sosial məqsəd daşıyaraq vergi ödəyicilərinin maddi vəziyyətinin yüksəldilməsinə yönəldilib. Digər vergi güzəştləri isə stimullaşdırıcı xarakter daşıyaraq sahibkarlıq fəaliyyətində müəyyən sahələrin inkişafını sürətləndirmək üçün tətbiq edilib. Vergi qanunvericiliyindəki dəyişikliklərdə xüsusi diqqət çəkən məsələlərdən biri fiziki şəxslərin gəlir vergisi ilə bağlıdır. Bu dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilib, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri müvafiq olaraq 2000 manatdan 2500 manata və 24000 manatdan 30000 manata qaldırılıb.

Bununla yanaşı, gəlir vergisi üzrə güzəştlərin həcmi də genişləndirilib. Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılıb.

I-II qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilir. Muzdlu işlə əlaqədar aylıq gəliri 200 manatadək, illik gəliri 2400 manatadək olan şəxslərə verilən güzəştin məbləği də artırılıb. Bu güzəştin müəyyən edilməsində istifadə olunan «minimum əməkhaqqı» məbləği (93,5 manat) «əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu» məbləği (125 manat) ilə əvəz olunub. Fiziki şəxslərin gəlir vergisində edilmiş dəyişikliklər vətəndaşların gəlirlərinin böyük hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əməkhaqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab edilir. Tətbiq edilən bu vergi güzəştləri və imtiyazlar sayəsində milyonlarla manat vəsait vergi ödəyicilərinin, vətəndaşların sərəncamında qalır, sahibkarlıq fəaliyyətinin genişlənməsinə, vətəndaşların sosial problemlərinin həllinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Azərbaycan hökumətinin qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq və iqtisadi artımın qeyri-neft sektorunun, o cümlədən onun aparıcı tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Odur ki, yaxın gələcəkdə dövlət investisiya siyasətinin əsas istiqamətlərini sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi təşkil edəcək. Bu proseslərə artıq start verilib və ilk uğurlu addımlar atılıb.

Orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün vergi qanunvericiliyində sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəştləri tətbiq edilib. Ekspertlərin fikrincə, bu, iqtisadiyyatın inkişafına müsbət təsir göstərəcək, texnoparklarda həyata keçirilən layihələrin miqyasının artmasına, bu sahəyə investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına böyük stimul verəcək.

**Rəşad SADIQOV**

# Borclu vergi ödəyiciləri

| Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|
| Bakı VD | «Alfa Ltd» şirkəti | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «AE Arma Elektropanç Elektromekanik Sanayi Mühendislik Taahhüt ve Ticaret Anonim şirketi»nin Azərbaycan Respublikasındakı nümayəndəliyi | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «AZERITRANSPORT» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «Abşeron X» MMC | Bakı şəhəri Nərimanov |
| Bakı VD | «AZUK» kiçik müəssisəsi | Bakı şəhəri Yasamal rayonu |
| Bakı VD | «Sistem İnşaat-Azərbaycan» MMC | Bakı şəhəri Yasamal rayonu |
| Bakı VD | «Aqro Star Plus» MMC | Bakı şəhəri Suraxanı rayonu |
| Bakı VD | «PİRAMİDA İNŞAAT» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «F.İ.P» MMC | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «ARAN» kiçik müəssisəsi | Bakı şəhəri Qaradağ rayonu |
| Bakı VD | «AST-M-Trans» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| Bakı VD | «UNİKAL ART» MMC | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «Meridian-55» MMC | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «Main Development Azerbaijan Ltd» törəmə şirkəti | Bakı şəhəri Yasamal rayonu |
| Bakı VD | «STAR-M» mənzil tikinti kooperativi | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «BAST» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «Evroşin» MMC | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «Arge İnşaat və Ticarət Anonim Şirkəti» MMC | Bakı şəhəri Səbail rayonu |
| Bakı VD | «KOM PLAS» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| Bakı VD | «Portelet Treydinq Limited» şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi | Bakı şəhəri Səbail rayonu |
| Bakı VD | «ASRA MMC» MMC | Bakı şəhəri Xətai rayonu |
| 2 saylı ƏVD | «Azərservis Ko» firması | Sumqayıt şəhəri |
| 2 saylı ƏVD | «MKB 2010» MMC | Sumqayıt şəhəri |
| 2 saylı ƏVD | «R.T Ltd» MMC | Abşeron rayonu |
| 2 saylı ƏVD | Talıbov Aqil Mirqasım oğlu | Abşeron rayonu |
| 2 saylı ƏVD | «AYQİDA SƏNAYE Ltd» MMC | Abşeron rayonu |
| 2 saylı ƏVD | «Metalçılar-2» MMC | Sumqayıt şəhəri |
| 5 saylı ƏVİ | «Dizayn Qlas» MMC | Neftçala rayonu |
| 6 saylı ƏVİ | «SERATO 500» MMC | Lənkəran rayonu |
| 6 saylı ƏVİ | «MAŞ.TEX.AZ.SERVİS» MMC | Masallı rayonu |
| 8 ƏVİ | «Nevv Age» MMC | Beyləqan rayonu |
| 10 saylı ƏVİ | «Parlament V» MMC | İsmayıllı rayonu |
| 11 saylı ƏVD | Nuriyev Emin Arzu oğlu | Bərdə rayonu |
| 11 saylı ƏVD | «Qələbə N» MMC | Şəki rayonu |
| 13 saylı ƏVİ | «KRİSTAL-KL» MMC | Zaqatala rayonu |
| 13 saylı ƏVİ | «Sky Fortune» MMC | Zaqatala rayonu |
| 13 saylı ƏVİ | «Latest» MMC | Zaqatala rayonu |
| 14 saylı ƏVİ | «Liberti» MMC | Tovuz rayonu |
| 14 saylı ƏVİ | «BHL-SERVİS Co Ltd» MMC | Şəmkir rayonu |
| 14 saylı ƏVİ | «Yuni Star» MMC | Gədəbəy rayonu |

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan Elçin Məmməd oğlu Rəhimov bir müddətdən sonra daha böyük biznes qurmaq üçün «Texnik Servis» MMC-ni yaradır və ticarət sektorunda kifayət qədər böyük müştəri şəbəkəsi quraraq yüksək gəlir əldə edir. Amma qanun qarşısında öhdəliyi barədə düşünmür, məqsədli şəkildə vergidən yayınmağa başlayır. Vergilərin ödənilməsinə dair vergi orqanlarının müraciət və bildirişlərinə məhəl qoymayaraq qanunvericiliyin tələblərini pozur.

Vergi orqanı əməkdaşları özünü intizamsız aparan bu sahibkarın fəaliyyətinin yoxlanılması üçün qanunamüvafiq tədbirlər görməyə məcbur olurlar. «Texnik Servis» MMC-də vergilər və digər icbari ödənişlərə dair qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün müəyyənləşdirilməsi məqsədilə həyata keçirilən səyyar vergi yoxlaması zamanı qanunsuzluqlar aşkara çıxır. E.Rəhimovun Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 78.1, 104.2 və 159.1-ci maddələrinin tələblərini pozaraq müəssisənin fəaliyyətinə dair məlumatları və bəyannamələri bilə-bilə təhrif etməsi, saxta mühasibat sənədləri hazırlaması nəticəsində 399 827,65 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırdığı təsdiq olunur. Səyyar vergi yoxlamasında şəxsən iştirak edən sahibkar yoxlamanın nəticələri ilə razılaşdığını, hesablanmış vergiləri dövlət büdcəsinə ödəməkdən yayındığını etiraf edib və törətdiyi əməldən peşman olduğunu bildirib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılan araşdırmaların yekunu olaraq E.Rəhimov barəsində Azərbaycan Respublikası CM-nin 213.2.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə ittiham aktı tərtib edilib. Başlanmış cinayət işi ilə əlaqədar onun başqa yerə getməməsi haqqında iltizam qətimkan tədbiri seçilib.

İş üzrə ifadəsi alınmış E. Rəhimov ifadəsində göstərib ki, müəssisənin əsas fəaliyyəti Rusiya Federasiyasından, Türkiyədən, Özbəkistandan, Ukraynadan, İran İslam Respublikasından müxtəlif yük maşınları üçün təkərlər, Almaniya və Yaponiya istehsalı avtomobillərin ehtiyat hissələri, plastik kütlədən borular, sənaye-ərzaq məhsulları, qənnadı məhsulları, un məmulatları, sərinləşdirici içkilər, dekorasiya olunmuş kağızlar, kənd təsərrüfatı texnikası, məişət avadanlıqlarının idxalını əhatə edib. Satılmış tikinti materiallarından və görülmüş xidmətlərdən «Texnik Servis» MMC-nin ƏDV depozit hesabına xeyli vəsait ödənilib.

Cinayət işinin gedişi zamanı müəyyən edilmiş istintaq materialları, şahid ifadələri, həmçinin ekspertiza rəyləri və digər sübutlar əsasında sahibkarın cinayət əməlləri sübut olunub. Nəsimi rayon məhkəməsinin hökmü ilə Rəhimov Elçin Məmməd oğlu 4 il müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

## DATA mərkəzi sertifikatlaşdırılır

*Azərbaycanın ilk «Tier III» səviyyəli regional DATA mərkəzi (Məlumatların Emalı və Saxlanılması Mərkəzi -MESM) oktyabrın 10-dək istismara veriləcək. Bu sahədə ixtisaslaşan ABŞ-ın «Uptime» İnstitutunun mütəxəssisləri avqustun 24-dən sertifikatlaşdırma mərhələsinə başlayacaq və bu proses təxminən bir həftə davam edəcək.*

DATA mərkəzin ümumi enerji istifadəsi 2 meqavat, sahəsi isə 1000 kvadratmetrdir. Məlumatların saxlama həcmi 30 petabayt, ötürülmə sürəti isə 10-100 GE təşkil edəcək.

Layihənin əsas hədəfi MESM-i regional informasiya mərkəzinə çevirməkdir. Azərbaycanda «Tier III» səviyyəli MESM-in mövcudluğu regional bazarda marağı olan beynəlxalq operatorlar, o cümlədən ABŞ, Fransa, Almaniyanın tanınmış telekommunikasiya operatorları üçün səmərəli şərait yaradacaq. Bundan başqa, mərkəz bütün dünya operatorlarının Azərbaycan bazarına cəlbinə xidmət edəcək. DATA mərkəzin bank və digər maliyyə qurumları tərəfindən istifadə olunması üçün tələb edilən PCİ DSS standartının tətbiqi də reallaşacaq.

Mərkəzdə bütün istehlakçıların məlumatları həcm və kateqoriyasından asılı olmayaraq yüksək səviyyədə mühafizə olunacaq. Ehtiyatlılığın təmin edilməsindən başqa, biometrik nəzarət sistemindən başlayaraq təhlükəsizlik sensorları və fiziki nəzarət sensorları daxil olmaqla altı pilləli təhlükəsizlik sistemi yaradılacaq. Azərbaycan qanunvericiliyinə uyğun olaraq məlumatların toxunulmazlığına dair tam zəmanət verilir.

## Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Yeni hesablar planı üzrə 201 saylı «Xammal və materiallar» hesabına dair ikili yazılışları, əsasən də xammal və materialların müxtəlif əməliyyatlar çərçivəsində mədaxil edilməsi formalarını diqqətinizə çatdırırıq. Göstərilən nümunələr şərti və öyrədici xarakter daşıyır.

**ƏDV ödəyicisi tərəfindən nağd qaydada materialların alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2015 | 201, Xammal və materiallar | Materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV ilə birlikdə məbləğ) | 11800 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar alınmışdır (malsatandan tam təhvil alınıb) (ƏDV ilə birlikdə məbləğ) | | 11800 |
| 08.01.2015 | 201, Xammal və materiallar | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | 700 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materialların müəssisənin anbarına daşınması üçün kənar yükdaşıma xidməti göstərən sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin xidmətləri qəbul edilib | | 700 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların ƏDV ilə birlikdə dəyəri kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | 11800 | |
| 12.01.2015 | 221, Kassa | Alınmış materialların ƏDV ilə birlikdə dəyəri kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | | 11800 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Və ya alınmış materialların ƏDV ilə birlikdə dəyəri təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | 11800 | |
| 12.01.2015 | 244, Təhtəlhesab məbləğlər | Və ya alınmış materialların ƏDV ilə birlikdə dəyəri təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | | 11800 |

Cədvəldən göründüyü kimi, müəssisəyə daxil olan materialların ehtiyat kimi uçota alınan dəyəri 12500 (11800 + 700) manat, yəni materialların ƏDV ilə birlikdə nəzərə alınan alış dəyəri ilə həmin materialların daşınması xərclərinin cəmi qədər olacaqdır.

Əgər mateiallar ƏDV ödəyicisi tərəfindən əvəzsiz olaraq (haqqı ödənilmədən) alınarsa, aşağıdakı ikili yazılışların verilməsi tövsiyə olunur:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2014 | 201, Xammal və materiallar | Əvəzsiz olaraq alınmış materiallar mədaxil olunub (qiymətləndirilən bazar dəyəri ilə uçota alınır, məsələn 9000 manat) | 9000 | |
| 08.01.2014 | 611, Sair əməliyyat gəlirləri | Əvəzsiz olaraq alınmış materiallar mədaxil olunub (qiymətləndirilən bazar dəyəri ilə uçota alınır, məsələn 9000 manat) | | 9000 |

Hamıya məlum olan maliyyə bərabərliyi düsturunun (aktiv = öhdəlik + kapital) tələbini nəzərə alsaq, bir aktiv artarsa, artan məbləğ qədər ya digər aktiv azalmalıdır, ya da öhdəliklərdən və ya kapital elementlərindən biri artmalıdır ki, bərabərlik təmin olunsun. Bizim misalda əvəzsiz alınmış materialların uçota alınan qiymətləndirilmiş bazar dəyəri (9000 manat) qədər müəssisənin aktivi, yəni materialları artmışdır. Ona görə də aktiv üzrə 201 saylı «xammal və materiallar» hesabı üzrə debet yazılışı verilmişdir. Bunun müqabilində materialların qiymətləndirilmiş bazar dəyəri (9000 manat) qədər hər hansı aktiv proporsional olaraq azalmamışdır (məsələn, pul çıxmayıb və ya əvəzində digər əşya verilməyib). Həmçinin materiallar əvəzsiz alındığına görə də öhdəlik yaranmır, yəni bu əməliyyat öhdəliklərə təsir etmir (öhdəlik hesabı üzrə kredit yazılışı verilmir). Ona görə də yalnız kapitalın artması baş verir (baş verməlidir də). Kapitalın artması həm də gəlir və xərclərlə bağlı olduğuna görə gəlirlərə aid 611 saylı «sair əməliyyat gəlirləri» hesabı üzrə kredit yazılışı verilmişdir. Çünki sonda gəlir hesabı bağlanaraq kapital (bölüşdürülməmiş mənfəət) hesabına köçürüləcəkdir.

vergi təqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24/31 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Rusiyada fərdi əməklə məşğul olanlar üçün xüsusi patent sistemi tətbiq ediləcək

Baş nazir Dmitri Medvedyev bildirib ki, Rusiya hökuməti fərdi əməklə məşğul olan vətəndaşlar üçün patent sistemi tətbiq etmək niyyətindədir. Onun sözlərinə görə, xüsusi vergi rejimlərinin tətbiq sahəsini genişləndirmək, fərdi əməklə məşğul olan vətəndaşlar üçün patent sistemi tətbiq etmək, vergi və sığorta ödəmələrinin «bir pəncərə» prinsipi üzrə ödənilməsi imkanlarını yaratmaq zəruridir. Ölkədə kadastr dəyərinə əsaslanan vergitutma sisteminə keçid yerli hökumətin xüsusi diqqətini tələb edir. «Artıq bu ildən vergi əmlakın kadastr dəyərinə əsaslanaraq hesablanmağa başlayıb. Bu, asan məsələ deyil və Maliyyə Nazirliyi, eləcə də regional hakimiyyətin maksimal diqqətini tələb edir», - Dmitri Medvedyev deyib.

Baş nazir əlavə edib ki, hökumət yeni sənaye müəssisələrinə onlar tərəfindən həyata keçirilən əsaslı xərclər həddində vergi güzəştlərinin verilməsi ideyasını da nəzərdən keçirir. Onun sözlərinə görə, bu investisiya fəallığını artırmalıdır.

Qeyd edilməlidir ki, 2014-cü ilin oktyabrında hökumət fərdi əməklə məşğul olan vətəndaşlar üçün patent sisteminin tətbiqi haqqında qanun layihəsini təsdiqləmişdi. Sənəd vergilərin ödənilməsi prosesini sadələşdirməyə hesablanıb və hökumətin mövqeyinə görə, bu, əmək bazarını leqallaşdırmağa kömək edəcək. Vətəndaş fəaliyyət göstərmək üçün patent alacaq və bununla da hüquqi şəxs və ya fərdi sahibkar kimi qeydiyyatdan keçməyə ehtiyac qalmayacaq.

# Litvanın maliyyə naziri yeni vergi siyasətinin istiqamətlərini elan edib

*Maliyyə naziri Rimantas Şadjyus məlumat verib ki, yaxın gələcəkdə ölkədə vergi sistemini dəyişdirmək planlaşdırılır. Onun sözlərinə görə, dövlətin maliyyə imkanları yaranan kimi vergilərin səviyyəsi aşağı salınacaq, əmlaka vergi isə dövlət büdcəsində daha əhəmiyyətli rol oynamağa başlayacaq.*

«Hazırda dünya vergitutma sistemində əsas tendensiya işçi qüvvəsinə vergiləri azaltmaqdır. İşçi qüvvəsinə vergilər dedikdə, gəlir və sosial sığorta vergiləri nəzərdə tutulur. Düşünürəm ki, gələcəkdə bizdə də belə olacaq və imkan yaranan kimi əməyin vergiyə cəlb edilməsini aşağı salmaq lazım gələcək», - R.Şadjyus deyib. O, qeyd edib ki, ən çox gəlir gətirən və səmərəli vergi ƏDV hesab edilir. Lakin gələcəkdə onun dərəcəsini artırmaq planlaşdırılmır: «Mən düşünmürəm ki, ƏDV tarifinin artımı düzgün addım olardı. Uzun müddətdir ki, sabitləşmiş 21%-lik dərəcə qonşu ölkələrin orta göstəricisinə də uyğundur. Böhran illərində biz bu dərəcəni bir-iki bənd artırmışdıq. Gələcəkdə ƏDV dərəcəsinin azalacağını demək çətindir. Çünki bu vergidən daxilolmalar büdcənin mühüm gəlir mənbəyidir, lakin belə bir fikir də var ki, tarifi azaltmaqla istehlakı təşviq etmək mümkündür».

Maliyyə naziri əmlak vergisi üzrə daxilolmaların hazırkı səviyyəsini isə «rüsvayçı» adlandırıb. O, vurğlayıb ki, əmlak vergisinin büdcə daxilolmalarında getdikcə daha aparıcı rol oynayacağına şübhə etmir.



# BVF Rumıniyaya vergi islahatları həyata keçirməyi tövsiyə edib

Beynəlxalq Valyuta Fondu (BVF) Rumıniya hökumətinə müraciət edərək vergi sistemində islahatların davam etdirilməsini tövsiyə edib.

Qeyd etmək lazımdır ki, hökumət vergi sisteminin şəffaflığını və sadəliyini təmin etmək üçün artıq bir sıra yeniliklər tətbiq edib. 2016-cı ildə ƏDV-nin, dividentlərə verginin və aksizlərin dərəcələrinin əhəmiyyətli şəkildə azaldılması, həmçinin qeyri-inşaat konstruksiyalarına vergilərin tamamilə ləğv edilməsi planlaşdırılır.

Qeyd edilməlidir ki, BVF ölkədə maliyyə islahatlarının həyata keçirilməməsini əsas gətirərək Rumıniyaya növbəti kredit tranşını ayırmaqdan imtina edib.

Xarici ölkələrin təcrübəsi

# Belarus Respublikasının vergi sistemi: *mənfəət vergisi*

Bu ölkənin mənfəət vergi sistemi klassik vergitutmaya əsaslanır: mənfəət müəssisə səviyyəsində vergiyə cəlb olunduqdan sonra bölüşdürülən mənfəət səhmdarların (payçıların) əlində yekun ödəmə mənbəyində vergitutmaya məruz qalır.



Mənfəət vergisi rezident hüquqi şəxslərin bütün dünya üzrə əldə etdikləri gəlirlərdən tutulur. Bu hüquqi şəxslər aşağıdakılardır:

- Birgə səhmdar cəmiyyətlər (AO);
- Məhdud məsuliyyətli cəmiyyətlər (OOO);
- Əlavə məsuliyyətli cəmiyyətlər (müəssisənin məsuliyyəti nizamnamə kapitalını üstələyir);
- Ümumi ortaqlıqlar (tərəfdaşlıqlar);
- Məhdud ortaqlıqlar (tərəfdaşlıqlar);
- İstehsal kooperativləri;
- Vahid müəssisə (fiziki şəxs və ya hüquqi şəxs olmaqla yalnız bir şəxs tərəfindən təsis edilmiş sahibkarlıq subyekti; bu tip müəssisələrin nəzarət etdiyi aktivlər üzərində sahiblik hüququ olmur).

Ümumi ortaqlıqlar və məhdud ortaqlıqlar ayrıca vergi ödəyicisi kimi nəzərdən keçirilərək ayrıca vergiyə cəlb olunur. Digər ortaqlıqlar (sadə ortaqlıqlar və ya səssiz ortaqlıqlar) şəffaf qurumlar olduğundan onların gəlirləri ortaqların əlində vergiyə cəlb olunur.

Uşaq qidaları və innovativ məhsullar istehsalından əldə edilən gəlir mənfəət vergisindən azaddır. Dövlət, bələdiyyə və Belarus Milli Bankının və Belarus rezidenti olan qurumların 1 aprel 2008-ci il-1 yanvar 2015-ci il tarixləri arasında buraxdığı istiqrazlardan əldə olunan gəlir (faizlər və digər qazanc) mənfəət vergisindən azaddır.

Belarus bankı tərəfindən idarə edilən investisiya fondlarından əldə olunan mənfəət vergidən azaddır.

Müəssisələr il ərzində mənfəət əldə etmək məqsədilə çəkdikləri bütün xərcləri, Belarus Vergi Məcəlləsində başqa qayda nəzərdə tutulmamışdırsa, öz gəlirlərindən çıxa bilərlər. Çəkilmiş bütün xərclər sənədlərlə təsdiq edilməlidir.

Belarusda, əsasən, beş qrup gəlirdən çıxılmalar mövcuddur:

- Material xərcləri;
- İşçilərə ödənilən əmək haqları;
- Əsas vəsaitlərin amortizasiyası;
- Müxtəlif sosial ödənişlər;
- Digər xərclər.

Bəzi gəlirdən çıxılan xərclər üçün yuxarı hədd müəyyən olunmuşdur:

- Yanacaq və enerji xərcləri yerli bələdiyyələr tərəfindən müəyyən edilmiş hədlər daxilində;
- ətraf mühit və mədən vergiləri qanunla müəyyən edilmiş hədlərdə;
- sutkalıq ödənişlər icbari yuxarı hədlər daxilində müəyyən edilir.

Müəssisənin bölüşdürdüyü dividendlərin məbləği gəlirdən çıxılmır. Müəssisənin ödədiyi faizlər gəlirdən adi qaydada çıxılır. Lakin müəssisənin əsas vəsaitlər və qeyri-maddi aktivlərin alınması məqsədilə götürülmüş kreditlər üzrə ödənilən faizlər gəlirdən çıxılmır, həmin aktivin dəyərinə daxil edilir. Kreditlərin gecikdirilməsi ilə bağlı müqavilə öhdəliklərinin pozulmasına görə hesablanmış faizlər də gəlirdən çıxılmır.

Amortizasiya məcburidir və təxirə salına bilməz. Bütün əsas vəsaitlər və qeyri-maddi aktivlər (torpaq, meşə, tarixi abidələr və incəsənət əsərləri istisna olmaqla) amortizasiya oluna bilər. Amortizasiyada, əsasən, düzxətli metoddan istifadə olunsa da, bir sıra digər metodlardan da istifadə oluna bilər.

Amortizasiya olunan aktivlər bir neçə qrupa daxil edilərək illik aşağıdakı normalarla amortizasiya olunur:

- Daşınmaz əmlak 0,8%-20%;
- Qurğu, maşın və avadanlıq 3,33%-20%;
- Ticarət nişanları, patent və digər qeyri-maddi aktivlər 5%-10%;
- Kompüterlər 7,14%-33,33%;
- Daşıma avtomobilləri 2,5-33,33%.

Amortizasiya bazası aktivin ilkin dəyəri hesab olunur. Buraya aktivin özünün dəyəri, onunla bağlı digər xərclər və aktivin istifadəyə verilməsinə çəkilən xərclər də daxil edilir.

Müəssisələrə istifadəyə verildiyi vaxtdan başlayaraq binaların dəyərinin 10%-nədək, avadanlıq və qeyri-maddi aktivlərin dəyərinin 20%-nədək hissəsinin gəlirdən birbaşa çıxmaq hüququ verilir. Sonrakı amortizasiya artıq onun ilkin dəyərindən həmin hissənin çıxılmasından sonra qalan hissəyə tətbiq edilir. Mühasibat balansına daxil edilmiş aktivlər 3 il ərzində satılarsa, amortizasiya məbləğləri bərpa edilərək vergi öhdəliyinə daxil edilir.

Adi zərər 10 il müddətinə növbəti dövrə keçirilə bilər. Aşağıdakı zərərlər növbəti dövrə keçirilə bilməz:

- Ümumi vergi rejimi ilə vergiyə cəlb olunmayan fəaliyyətdən yaranan zərər;
- Müəssisənin mənfəət vergisindən azad olunduğu dövrdə yaranmış zərər.

Müəssisə zərərləri növbəti dövrə keçirərkən bütün mühasibat qeydləri və ilkin sənədlərin əsli tələb olunur.

Kapital zərərləri qiymətli kağızlar və əsas vəsaitlərin satışından yaranmış zərərlər növbəti dövrə keçirilərək ancaq eyni növ gəlirlər hesabına kompensasiya edilə bilər.

Mənfəət vergisi 18% dərəcə ilə (2012-ci ilədək 24% olub) tutulur. Səhmlərin satışından əldə edilən kapital gəlirləri qeyri-əməliyyat gəlirləri hesab edilərək azaldılmış 9% dərəcə ilə vergiyə cəlb olunur.

Rezident müəssisələrə ödənilən faiz və royaltilərdən ödəmə mənbəyində vergi tutulmur. Lakin bu cür gəlirlər vergi ödəyicisinin ümumi mənfəət vergitutma bazasına daxil edilir və adi qaydada ümumi dərəcə ilə vergiyə cəlb olunur. Rezident müəssisələrin digər rezident müəssisələrə ödədiyi dividendlər ödəmə mənbəyində yekun 12% dərəcə ilə vergiyə cəlb olunur.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.İslam dininə görə, əməl yerinə yetirildikdə heç bir günah yazılmayan, lakin bəyənilməyən əməl; 2.Avtobusdan əvvəl böyük şəhərlərdə ictimai nəqliyyatın aparıcı növü; 3.Yırtıcı balıq; 4.Elmi, ədəbi və s. mövzuya dair açıq mübahisə; 5.Türk dünyasının böyük şairlərindən biri, «Xəmsə» müəllifi; 6.Xoş ətirli üzüm növü; 9.Stolüstü oyun; 13.Yaratma, qurma, vücuda gətirmə; 15.Mərakeşin şimal-qərbində şəhər; 16.Braziliya ilə Argentinanın sərhədində yerləşən və UNESCO tərəfindən Ümumdünya irsi siyahısına daxil edilmiş təbiət abidəsi (şəlalə); 17.Apple tərəfindən yaradılmış və öz cihazlarında tətbiq olunan veb brauzerin adı; 18.Nəfəsli musiqi aləti; 20.Bir-birinə nisbətən oxboyu fırlanan vallar, çarxlar və ya başqa fırlanan hissələr arasında daimi və ya müvəqqəti ötürmə yaratmaq və bununla bir tərəfdən digər tərəfə qüvvə ötürmək üçün birləşmə qurğusu; 21.İdarənin, müəssisənin və s. adı olan möhür. **Soldan sağa:** 1.Ürək xəstəliyi; 5.ABŞ-ın Alyaska ştatında çay və şəhər; 7.Qədim Çin filosofu və mütəfəkkiri; 8.Slavyan xalqlarının ənənəvi içkisi, taxıldan və ya çörəkdən hazırlanır; 10.Mixəyi rəngdə piqment; 11.İdeal cəmiyyət yaratmaq haqqında qeyri-elmi fəlsəfi görüş, nəzəriyyə; 12.Bir şəklin, rəsmin və ya onun bir hissəsinin ilk qaralaması; 14.Cakomo Puççininin operası; 19.Almaniya yazıçısı və Nobel mükafatı laureatı Elias Kanettinin 1935-ci ildə yazdığı 3 hissədən ibarət roman; 21.Xüsusi biçimdə tikilmiş əsgər qış paltosu; 22.Yunan əlifbasının birinci hərfinin adı; 23.Başqırdların və tatarların el bayramı; 24.Xızı rayonunda kənd; 25.Dörd ildən bir keçirilən idman yarışları.



*Braziliya ilə Argentinanın sərhədində yerləşən və UNESCO tərəfindən Ümumdünya irsi siyahısına daxil edilmiş təbiət abidəsi. Şəlalə*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İndeks; 2.Məzənnə; 3.Noyan; 4.Treska; 5.Merac; 6.Domino; 9.Aksu *(Sezen)*; 13.İmic; 15.Enterit; 16.Manqal; 17.Mayami; 18.Avqust; 20.Tarix; 21.Amper. **Soldan sağa:** 1.İmmunitet; 5.Med; 7.Dizayner; 8.Brom; 10.Kənan *(Doğulu)*; 11.Kikican; 12.Məcid *(Şamxalov)*; 14.Kuper *(Ceyms Fenimor)*; 19.Aktrisa; 21.Aktiv; 22.Qara; 23.Paspartu; 24.Lex; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
*anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu
*redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

## idman

# Velosipedçilərimiz beynəlxalq yarışlarda uğurla çıxış ediblər

*Ukraynanın Lvov şəhərində velosiped idmanının trek növü üzrə Qaliçina «Qran-prisi»nə yekun vurulub. Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci kateqoriyalı yarışında yığma komandamız 1 qızıl və 3 gümüş medal qazanıb.*



Qızıl medalı aktivinə 500 metr məsafəyə sprint yürüşündə hamını qabaqlayan Sergey Omelçenko yazdırıb. Bundan başqa o, 200 metr məsafəyə mübarizədə və keyrində aktivinə daha 2 gümüş medal əlavə edib.

Digər gümüş medala isə Yelena Pavluxina sahib olub. O, 10 kilometr məsafəyə skretç yarışında fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Daha bir mötəbər yarış - Estoniyanın Tartu şəhərində velosiped idmanının şose növü üzrə 23 yaşadək velosipedçilər arasında Avropa çempionatı da təmsilçilərimiz üçün uğurlu olub. Komandamızın üzvü, ötən ay 21 yaşı tamam olan Samir Cəbrayılov bu yaş qrupunda Azərbaycan velosipedinin ən yüksək göstəricisinə imza atıb. «Synergy Baku» kontinental komandasının da şərəfini qoruyan idmançımız 161 kilometr məsafəni Avropa çempionu titulunu qazanan slovakiyalı Erik Baska ilə eyni vaxtda başa vurub - 3 saat, 36 dəqiqə, 49 saniyə.




Fotofinişə əsasən S.Cəbrayılov yekun sıralanmada 160 iştirakçı arasında 14-cü nəticə göstərib.

Xatırladaq ki, ötən il İsveçrədə keçirilən yarışda Elgün Əlizadə gənclər arasında 12-ci olmuşdu.

# 3 qızıl, 1 gümüş və 6 bürünc

Serbiyanın Subotiça şəhərində yeniyetmə güləşçilər arasında Avropa çempionatı başa çatıb. Çempionatın sonuncu günündə 46, 54, 63, 76 və 100 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizə aparıblar. Güləşçilərimiz günü 1 qızıl və 1 bürünc medalla başa vurublar.



Yarışda 100 kiloqram çəki dərəcəsində yığmamızın üzvü Camal Feyziyev Xorvatiya, Bosniya və Herseqovina, Rumıniya güləşçilərini mübarizədən kənarlaşdıraraq finala yüksəlib. Güləşçimiz Rusiya təmsilçisi ilə gərgin keçən həlledici görüşü 2:1 üstün tamamlayıb və Avropa çempionatının qızıl medalını qazanıb.

Turnirdə 46 kiloqram çəki dərəcəsində mübarizə aparan Zaur Nuriyev əvvəlcə Belarus, ardınca Ermənistan təmsilçisinə qalib gəlib. Yarımfinalda Türkiyə güləşçisinə uduzan Z.Nuriyev bürünc medal uğrunda görüşə çıxıb. Latviya idmançısına tam üstünlüklə (8:0) qalib gələn güləşçimiz Avropa çempionatının bürünc medalına sahib olub.

Yunan-Roma güləşi yarışlarının ilk günündə Ülvi Qənizadə (69 kq) bürünc medal qazanmışdı. Ümumilikdə 1 qızıl və 2 bürünc medal qazanan yunan-Roma güləşçilərimiz komanda hesabında Rusiya, Gürcüstan və Türkiyədən sonra dördüncü yeri tutub.

Çempionatda mübarizəni başa vuran kişi sərbəst güləşçilərimiz 2 qızıl və 3 bürünc, yeniyetmə qızlar isə 1 gümüş və 1 bürünc medal qazanıblar. İslam Bazarqanov (50 kq) və Alimaqomed Alixmayev (100 kq) qızıl, Əsgər Məmmədəliyev (42 kq), Geriya Qadisa (58 kq) və İsmayıl Abdullayev (69 kq) bürünc medala sahib olublar. Bu nəticə ilə sərbəst güləş yığmamız komanda hesabında Gürcüstan, Türkiyə və Rusiyadan sonra dördüncü pillədə qərarlaşıb.

Yeniyetmə qızların mübarizəsində güləşçilərimizdən Zemfira Ələkbərli (38 kq) gümüş və Aynur Camalova (43 kq) bürünc medala sahib olublar.

# Səmti müəyyənetmə idmanı təbliğ olunur

***«İRƏLİ» İctimai Birliyinin təşkil etdiyi «SAY: Support of Azerbaijan Youth» hərəkatı adı altında təşkil etdiyi «Green» layihəsi başa çatmışdır.***

Gəncə şəhərinin Hacıkənd qəsəbəsində təşkil olunan düşərgədə 100-ə yaxın gənc açıq havada qurulmuş çadırlarda qalaraq ətraf mühitin qorunması sahəsində bir sıra təlimlərdə, ictimai müzakirələrdə iştirak etməklə yanaşı, səmti müəyyənetmə, dağa dırmanma və s. idman növləri üzrə yarışlarda özlərini sınamışdır.

Layihə çərçivəsində Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyası tərəfindən düşərgə iştirakçıları üçün idmanın ölkəmizdə hələ yenicə təşəkkül tapan bu növü üzrə təlimlər təşkil olunmuşdur. Proqrama uyğun olaraq səmti müəyyənetmə üzrə milli komandamızın üzvü, respublika çempionu Şəhriyar İsmayılovun başçılığı ilə üç gün davam edən nəzəri və praktiki təlimlərin ardından gənclər arasında yarış keçirilmişdir.

## mozaika

texnologiya

# Ən nazik lampa

*Kolumbiya Universitetinin tədqiqatçıları lampaların qrafenin tətbiqinə əsaslanan yeni texnologiyasını hazırlayıblar.*

İşıq diodlarını əvəz edə bilən karbon lampaların işıqlandırmağa başlaması üçün qrafeni qızdıran xüsusi çipdən istifadə edirlər.

Faktiki olaraq, ənənəvi közərmə lampaları həmin prinsip əsasında işləyir, lakin közərmənin qrafen tellərinin qalınlığı cəmi bir atom təşkil edir. Yeni nəsil lampalar isə analoqları ilə müqayisədə daha nazik olacaq.

Alimlərin bildirdiyinə görə, hazırladıqları qrafen teli ilə birlikdə işləyən «qızdırıcı» çipi digər sahələrdə də (müxtəlif kimyəvi preparatların qızdırılması, kimyəvi reaksiyaların öyrənilməsi üçün və s.) tətbiq etmək mümkündür.

Tədqiqatçılar iddia edirlər ki, yeni texnologiya əvvəlki texnologiyalardan fərqlənir və bir sıra üstünlüklərə malikdir.

tədqiqat

# Təfəkkür tərzi və musiqi zövqü

*Dörd min adam arasında aparılmış sorğu dünyanın qanunauyğunluğu və quruluşu mexanizmlərinə daha çox diqqət yetirən şəxslərlə insani münasibətləri ən vacib hesab edənlərin zövqləri arasındakı təzadı üzə çıxarıb. Sən demə, insanın təfəkkür tərzi onun musiqi zövqünü müəyyənləşdirirmiş.*

Tədqiqatların nəticələri barədə «PLoS One» jurnalında təqdim edilən yazıda bildirilir ki, Kembric Universitetinin psixoloqları istinad nöqtəsi kimi Saymon Baron-Koenin empatiya-sistemləşdirmə nəzəriyyəsini əsas götürüblər. Bu alim insanları sistemləşdirməyə (səbəb-nəticə əlaqələrini başa düşmək və qanunauyğunluğu tapmaq bacarığı) və empatiyaya (qanunauyğunluqdan kənar hal kimi qəbul edilən qeyri-xətti mürəkkəb sistemin davranışını öncədən söyləməyə kömək edən) daha çox meyilli insanlar kateqoriyasına bölməyi təklif edir. Birincilər təbii və dəqiq elmlər, mexanizmlərlə işləmək sahəsində daha çox bacarıqlı olduqları halda, ikincilər başqa insanlara daha yaxşı təsir göstərir, onların rəftarlarını hiss edir və başa düşürlər.

Alimlər «Facebook»un istifadəçiləri çoxsaylı psixoloji testlərdən keçməyə məcbur edən «myPersonality» əlavəsi vasitəsilə dörd min könüllünü tədqiqata cəlb ediblər. Ayrı-ayrı musiqiçilər və onların əsərlərinə gözlənilməz şəxsi bağlılığı minimuma endirmək üçün könüllülərdən 26 janrda 50 musiqi əsərini dinləmək və qiymətləndirmək xahiş olunub.

Empatiyaya meyilli insanlar yumşaq və sadə musiqinin, o cümlədən soft-rok, kantri, folk, elektronika, europop musiqisinin həvəskarları olublar. Onlara ağır və pankrok, ağır metal janrı xoş gəlməyib. Sistematiklərin zövqü bunun tam əksi olub. Bu fərqlər ayrı-ayrı üslublar çərçivəsində də davam edib: empatiyaya meyillilər yumşaq və sadə, sistematiklər mürəkkəb və avanqard caza üstünlük veriblər.

Bundan əlavə, empatiya şkalası üzrə yüksək göstəricilərin sahibləri az enerjili musiqini (düşündürücü, kamera melodiyaları), qəmli və melanxolik kompozisiyaları, habelə emosional məzmunlu əsərlərə üstünlük veriblər. Sistematiklərə daha çox enerjili, şən, aqressiv və intellektual musiqi xoş gəlib.

Psixoloqların gəldiyi nəticənin musiqi biznesi üçün praktik əhəmiyyəti var. Tədqiqatın həmmüəllifi, saksofonçu Devid Qrinberqin fikrincə, «Spotify» və «Apple Music» kimi strimінq xidmətindən istifadə edənlər üçün musiqi seçən alqoritmlərə çox vəsait sərf olunur. İnsanın koqnitiv tipini bilən bu xidmətlər daha keyfiyyətli melodiyalar tövsiyə edə bilərlər.




layihə

# 3D-printer ofis binası tikəcək



Birləşmiş Ərəb Əmirliklərinin Nazirlər Kabineti işləri üzrə dövlət naziri Məhəmməd əl-Qarqavinin bildirdiyinə görə, Dubayda 3D-printerin köməyi ilə ofis binasının inşası planlaşdırılır. Nazir qeyd edib ki, ümumi sahəsi 185 kvadratmetr təşkil edən birmərtəbəli tikili hündürlüyü altı metrdən çox olan printerdə laylar üzrə yaradılacaq. Həmçinin qurğunun köməyi ilə binanın struktur komponentləri və interyer əşyaları çap ediləcək. İnteryer əşyalarının hazırlanmasında dəmir-beton, gips, armaturlu şüşə və plastikdən istifadə olunacaq.

Çinin binaların inşasını həyata keçirən ilk şirkəti olan «Winsun» şirkəti bir neçə həftəyə ərsəyə gəlməsi nəzərdə tutulan bu layihədə iştirak edəcək. Cari ilin əvvəlində şirkət 3D-printer vasitəsilə yaradılan beşmərtəbəli yaşayış evi və villanı təqdim edib.

Üçölçülü printerlər ənənəvi bina tikintisi ilə müqayisədə tikinti müddətini 50-70 faiz, iş xərclərini isə 50-80 faiz azaltmağa imkan verir.



araşdırma

# Ömür uzadan...

Ər-arvad incikliyi stress səviyyəsinə təsir göstərir, arterial təzyiqi, ürək-damar xəstəlikləri riskini artırır. Əgər kişi ömür-gün yoldaşına qarşı diqqətlidirsə, könlünə dəyən kimi dərhal üzr istəyirsə, onun qadınının ömrü uzanır. ABŞ alimləri yaşlı ərarvadların ailə xoşbəxtliyinin səbəblərini təhlil edərək bu qənaətə gəliblər.

Amerika alimlərinin fikrincə, üzr istəməyi, xanımının əsəblərini qorumağı bacaran kişilər onun ömrünü uzadırlar.

Alimlər onu da müəyyən ediblər ki, kişinin xanımından təqribən 15 yaş böyük olduğu ailələrdə onun ömrü 20 faiz uzanır, qəfil ölüm riski isə orta hesabla beş dəfə azalır.

**Müdriklər deyib ki...**



***«Yamanlara yaxşılıq etmək yaxşıların haqqında pislik etmək kimidir».***

***Abbasqulu ağa Bakıxanov (1794-1847)***